# AZƏRBAYCAN 2013 – 2003

ƏSRƏ BƏRABƏR İLLƏR

114670

# XARİCİ SİYASƏT:

## ikitərəfli və çoxtərəfli münasibətlər – beynəlxalq inteqrasiya və ölkənin nüfuzunun güclənməsi

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

66.3(5Aze)8 + 66.4(5Aze)
A 33

"Müharibə və işğalın ağır nəticələrindən əziyyət çəkən bir ölkə kimi Azərbaycan qəti şəkildə inanır ki, dövlətlər arasında yaxşı qonşuluq, dost münasibətləri və əməkdaşlığa aid beynəlxalq səviyyədə qəbul olunmuş beynəlxalq hüququn norma və prinsiplərinə düzgün qaydada riayət edilməsi, eləcə də dövlətlərin üzərlərinə götürdükləri öhdəliklərin xoş iradə ilə yerinə yetirilməsi beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında çox böyük əhəmiyyətə malikdir."

**İlham Əliyev**





# 2013

**22 yanvar 2013-cü il tarixində Prezident İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun "Mərkəzi Asiya üçün yeni üfüqlər" mövzusunda sessiyasında iştirak etmək məqsədi ilə İsveçrədə işgüzar səfərdə olmuşdur.**

Bir sıra ölkələrin rəsmilərinin və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi sessiyada çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri barədə danışmışdır. Dövlətimizin başçısı son illərdə Azərbaycanda yüksək dinamik inkişafın müşahidə olunduğunu, ümumi daxili məhsulun üç dəfə artdığını diqqətə çatdırmışdır. Enerji sahəsində Azərbaycanın əldə etdiyi uğurlardan danışan Prezident İlham Əliyev bildirmişdir ki, ölkəmizdə qeyri-enerji sektorunun da inkişafı diqqət mərkəzində saxlanılır və bununla bağlı bir çox layihələr həyata keçirilir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə toxunan Prezident İlham Əliyev ölkəmizin qlobal iqtisadi və enerji layihələrində iştirakının əhəmiyyətindən danışmışdır. Dövlət başçısı regional əməkdaşlıq və digər məsələlərə də toxunmuş və ona ünvanlanmış sualları cavablandırmışdır.




**24 yanvar 2013-cü il tarixində Prezident İlham Əliyev Davosda İsrail Prezidenti Şimon Peres ilə görüşmüşdür.**

Görüşdə Azərbaycan-İsrail münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılmışdır.



# 2013

**8 fevral 2013-cü il tarixində Serbiya Prezidenti Tomislav Nikoliç Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezidentlərin görüşündə ikitərəfli, regional, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Görüş zamanı Prezident İlham Əliyev bildirmişdir: "Mən əminəm ki, Sizin səfəriniz bizim siyasi əlaqələrimizi daha da möhkəmləndirəcəkdir. Əlbəttə, bu əlaqələr iqtisadi sahədə əlaqələrin inkişafına güclü təkan verəcəkdir. İqtisadi sahədə artıq birgə fəaliyyət üçün gözəl təcrübəmiz vardır. Əminəm ki, səfər zamanı yeni layihələr haqqında konkret və dəqiq qərarlar veriləcəkdir. Xüsusilə energetika, nəqliyyat, investisiyaların qoyuluşu sahələrində əməkdaşlıq üçün çox gözəl perspektivlər vardır".



**27 fevral 2013-cü il tarixində Gürcüstan Prezidenti Mixeil Saakaşvili Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezidentlərin görüşündə iki ölkə arasında əməkdaşlığın bütün sahələri üzrə fikir mübadiləsi aparılmış və gələcək perspektivlər müzakirə edilmişdir. Prezident İlham Əliyev görüş zamanı bildirmişdir: "Bizim münasibətlər çox sınaqlardan keçmiş, ən yüksək səviyyəyə çatmışdır, bundan yüksəyini təsəvvür etmək yəqin ki, çətindir. Konkret layihələr həyata keçirilir, onlar ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdırır. Gələcək üçün də yaxşı perspektivlər vardır. Bunu təmin etmək üçün inamlı inteqrasiya kursunu, beynəlxalq sahədə səylərimizin əlaqələndirilməsini davam etdirmək lazımdır. Sizinlə başladığımız konkret iqtisadi və infrastruktur layihələrinin uğurla başa çatdırılması da regionda sabitliyə və xalqlarımızın rifahına şərait yaradacaqdır".



# 2013

**10 mart 2013-cü il tarixində Prezident İlham Əliyev Xorvatiya Respublikasına rəsmi səfərə yola düşmüşdür.**

Prezidentlər arasında keçirilən görüşdə Xorvatiya Prezidenti İvo Yosipoviç əlaqələrimizin siyasi, iqtisadi, mədəni sahələrdə uğurla inkişaf etdiyini bildirmişdir. İqtisadi sahədə əlaqələrimizin inkişafı üçün yaxşı potensialın olduğunu deyən Prezident İvo Yosipoviç enerji, mədəniyyət və turizm sahələrində münasibətlərin genişləndirilməsinin vacibliyini vurğulamışdır. İvo Yosipoviç Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həllinin Xorvatiya tərəfindən dəstəkləndiyini bildirmişdir. Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycan–Xorvatiya əməkdaşlığı siyasi, iqtisadi və digər sahələrdə inkişaf edir. Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsinin və əməkdaşlığın yeni sahələrinin müəyyən edilməsinin önəmini vurğulamışdır. Enerji sahəsində fəal əməkdaşlığın olduğunu deyən Prezident İlham Əliyev qeyd etmişdir ki, Avropanın enerji təhlükəsizliyinə töhfə verən Azərbaycan ilə Xorvatiya arasında bu sahədə əlaqələrin genişləndirilməsi vacibdir. Prezidentlərin görüşündən sonra Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında strateji tərəfdaşlıq və dostluq münasibətləri haqqında Zaqreb Bəyannaməsi imzalanmışdır.

**12 mart 2013-cü il tarixində Prezident İlham Əliyev Monteneqroda rəsmi səfərdə olmuşdur.**

Prezidentlərin görüşündə Azərbaycan ilə Monteneqro arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyi vurğulanmış, beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Ölkəmizin Monteneqroya investisiya qoyuluşunun iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edilmişdir. Energetika, turizm, infrastruktur və digər sahələrdə əməkdaşlığımızın yaxşı potensialı olduğunun vurğulandığı görüşdə əlaqələrimizin bundan sonra da genişləndirilməsi barədə razılıq əldə olunmuşdur.

# 2013





2013-cü ilin 8 aprel tarixində Bakıda "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda Dünya İqtisadi Forumu (Davos Forumu) işə başlamışdır.

Ümumdünya İqtisadi Forumu 1971-ci ildən etibarən dövlət və hökumət başçılarının, yüksək vəzifəli biznesmenlərin, elm və din xadimlərinin iştirakı ilə keçirilən geniş tərkibli illik iclasdır. Azərbaycan Prezidenti İlham Əliyev Forumda çıxışı zamanı bildirmişdir: "Mərkəzi Asiya, Xəzər dənizi və Qara dəniz regionlarının, Cənubi Qafqazın böyük potensialı vardır. Ola bilsin, bu gün həmin potensialın yalnız bir hissəsini təqdim edə bildik. Lakin əminəm ki, gələn illər ərzində biz bu müzakirələrə daha çox diqqət ayıracağıq və onlar, eyni zamanda, ideyaları formalaşdırır, rəyləri və gözləntiləri, o cümlədən narahatlıq doğuran, bəzən məyus edən məsələləri söyləmək üçün mühit yaradır".




24 aprel 2013-cü il tarixində Latviya Respublikasının Prezidenti Andris Berzinş Azərbaycana rəsmi səfərə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Andris Berzinşin görüşü zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilmişdir. Görüş zamanı Azərbaycan Prezidenti bildirmişdir: "Bizim aramızda çox yaxşı əməkdaşlıq vardır. Bu əməkdaşlıq, demək olar ki, bütün sahələri əhatə edir. Həm siyasi, həm də iqtisadi əlaqələrimiz inkişafdadır. Beynəlxalq təşkilatlarda da biz çox fəal əməkdaşlıq edirik və bir-birimizi dəstəkləyirik. Yəni, iki ölkə arasında heç bir problem yoxdur, yalnız birgə səylərimizi gücləndirib daha da yaxşı əməkdaşlığa nail olmalıyıq. Əminəm ki, səfər zamanı aparılan danışıqlar və keçirilən fikir mübadiləsi bütün məsələlərin həlli üçün yaxşı zəmin yaradacaqdır". Görüşdə Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı çərçivəsində ölkəmizin Latviya ilə münasibətlərinin genişləndirilməsi məsələləri də müzakirə olunmuşdur.



# 2013

**10–14 may 2013-cü il tarixində Prezident İlham Əliyev Avstriyaya rəsmi səfərdə olmuşdur.**

# 2013

Prezident İlham Əliyevin və Avstriya Respublikasının Prezidenti Haynts Fişerin görüşü zamanı ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır. Görüşdə ulu öndər Heydər Əliyevin Avstriyaya rəsmi səfərini xatırladan Prezident Haynts Fişer Prezident İlham Əliyevin Avstriyaya rəsmi səfərinin ikitərəfli əlaqələrin inkişafında mühüm mərhələ olacağını vurğulamışdır. Prezidentlər Azərbaycan ilə Avstriya arasında əməkdaşlığın bütün sahələrdə inkişaf etdiyini, siyasi və iqtisadi əlaqələrin getdikcə möhkəmləndiyini qeyd etmişlər. Ölkələrimizin enerji sahəsində əməkdaşlığının müzakirə edildiyi görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafının önəmi vurğulanmış və "Azərbaycan Respublikası və Avsrtiya Respublikası arasında dostluq münasibətləri və tərəfdaşlığa dair Birgə Bəyannamə" imzalanmışdır. Prezident İlham Əliyev görüş zamanı bildirmişdir: "Cənab Prezident bildirdi və bu Bəyannamədə qeyd olunub ki, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini müzakirə etdik. Münaqişə beynəlxalq hüququn normaları, beynəlxalq təşkilatların qərarları və qətnamələri əsasında həll olunmalıdır. Onların arasında mən erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini xüsusilə qeyd etmək istəyirəm. Əfsuslar olsun ki, 20 ildir bu qətnamələr yerinə yetirilmir, işğal davam edir. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, etnik təmizləmə siyasətinə və soyqırımına məruz qalmışdır. Əfsuslar olsun ki, ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin prezidentlərinin status-kvonun qəbulolunmazlığı barədə verdikləri bəyanatlara Ermənistanda məhəl qoymurlar. Status-kvonun dəyişilməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanğıcı deməkdir. Fikrimcə, bu, nə qədər tez baş verərsə, danışıqlar prosesi daha sürətlə gedər və danışıqlar prosesində müşahidə olunan mühit mənfidən müsbətə doğru dəyişə bilər. Azərbaycan ərazilərinin dərhal işğaldan azad edilməsinin başlanması bizim gözlədiyimiz məsələdir".







Vyanada Avstriya–Azərbaycan biznes forumu keçirilmişdir. Prezident İlham Əliyev və Avstriya Respublikasının Prezidenti Haynts Fişer biznes forumda iştirak etmişlər.

Prezident İlham Əliyev Vyanada Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukiya Amano ilə görüşmüşdür. Görüşdə baş direktor Yukiya Amano Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verdiklərini, ölkəmizin nüvə təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş olduğunu bildirmişdir. Prezident İlham Əliyev nüvə təhlükəsizliyinin təkcə Azərbaycan üçün deyil, region və dünya üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirmiş və Ermənistandakı Atom Elektrik Stansiyasının fəaliyyətinin bu baxımdan region üçün böyük təhlükə doğurduğunu vurğulamışdır.

Avstriya Respublikasında səfəri çərçivəsində Prezident İlham Əliyev Vyana şəhərinin meri Mixael Höypl ilə görüşmüş və Vyana şəhər meriyasının xatirə kitabını imzalamışdır.

Avstriya Respublikasında səfəri çərçivəsində Prezident İlham Əliyev Vyanada BMT-nin Sənayenin İnkişafı Təşkilatının Baş direktoru Kandeh Yumkella ilə görüşmüşdür. Prezident İlham Əliyev Azərbaycandakı iqtisadi inkişaf proseslərini diqqətə çatdıraraq, ölkəmizdə yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması, energetika və digər sahələrdə görülən tədbirlər barədə məlumat vermiş, respublikamızın əldə etdiyi uğurlardan danışmışdır.

2013








**13 may 2013-cü ildə Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı olmuşdur.**

# 2013

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər. Prezident İlham Əliyev bildirmişdir: "Bu gün əlamətdar gündür. Biz birlikdə Vyanada Azərbaycan Mədəniyyət Mərkəzini açırıq. Bu, bizim münasibətlər tarixində əlamətdar bir hadisədir. Çünki dünya mədəniyyətinin paytaxtında belə Mədəniyyət Mərkəzinin açılışı həqiqətən də bizim üçün çox əhəmiyyətlidir".

Səfər çərçivəsində Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Vyanadakı Dunay parkında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin abidəsini ziyarət etmişlər. Dunay parkında dünya mədəniyyətinin tanınmış simalarının abidələri ucaldılmışdır. Üzeyir Hacıbəylinin abidəsinin açılış mərasimi 2006-cı ilin mayında olmuşdur.







**19 may 2013-cü il tarixində Yunanıstanın Baş naziri Antonis Samaras Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezident İlham Əliyevin Yunanıstanın Baş naziri Antonis Samaras ilə görüşü zamanı Azərbaycan ilə Yunanıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni sahələrdə uğurla inkişaf etdiyi qeyd olunmuş, enerji sahəsində əməkdaşlığın bundan sonra da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulanmışdır.

**2013-cü ilin 29 may tarixində Bakıda Azərbaycan ilə ABŞ arasında tərəfdaşlıq əlaqələrinin yaradılmasının 21-ci ildönümü ilə bağlı "Gələcəyə baxış" Azərbaycan–ABŞ Forumunun rəsmi açılışı olmuşdur.**

Heydər Əliyev Mərkəzində keçirilən forumda Amerikanın 42 ştatını təmsil edən 320 nümayəndə iştirak etmişdir. "ABŞ hər zaman Azərbaycanın yanında olmuşdur. İslahatların həyata keçirilməsi, regional təhlükəsizliyin gücləndirilməsi məsələsində də bizim yaxın tərəfdaşımız olmuşdur. Bu Forum zənnimcə, onun ən bariz nümunəsidir" deyə cənab Prezident öz nitqində bildirmişdir.

**2013-cü ilin 29 may – 1 iyun tarixində Bakıda II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir.**

Forumda beynəlxalq qurumların rəhbərləri, bir neçə ölkənin hazırkı və sabiq prezidentləri, dünyanın 100-dən çox ölkəsindən nazirlər, ekspertlər, beyin mərkəzlərinin rəhbərləri, alimlər və mədəniyyətlərarası dialoqla məşğul olan mərkəzlərin yüksək səviyyəli nümayəndələri iştirak etmişlər. Forumda çıxışı zamanı Azərbaycan Prezidenti bildirmişdir: "Hesab edirəm ki, bu Forumun Azərbaycanda keçirilməsi təsadüfi deyildir. Çünki Azərbaycan əsrlər boyu burada yaşayan bütün millətlərin, bütün dinlərin nümayəndələri üçün Vətən olmuşdur. Biz fəxr edirik ki, bu gün də müstəqil Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin nümayəndələri, bütün millətlər bir ailə kimi sülh, mehribanlıq, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Bu bizim böyük sərvətimizdir, böyük üstünlüyümüzdür və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafında bu amil də öz rolunu oynamışdır".

# 2013












**20–21 iyun 2013-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Belçika Krallığında işgüzar səfərdə olmuşdur.**

# 2013

İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, regional təhlükəsizlik və sabitlik, enerji sahəsində əməkdaşlıq və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Görüş zamanı Azərbaycan Prezidenti bildirmişdir: "Bu gün biz xüsusi olaraq regional sabitlik və təhlükəsizlik, münaqişənin həlli məsələsinə toxunduq. Biz ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin prezidentlərinin verdiyi bəyanatı yüksək dəyərləndiririk. Biz onlara minnətdarıq ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini gündəliyin əsas hissəsində saxlayırlar və onlar "səkkizlər" qrupu kimi mötəbər forumdan öz münasibətini və narahatlığını bildirmək üçün istifadə etdilər. Biz onların münaqişənin mümkün qədər tez həllinə nail olmaq üçün bütün lazımi addımların atılmasına dair verdikləri şərhləri tam dəstəkləyirik. Helsinki Yekun Aktına edilən istinad çox vacibdir. Helsinki Yekun Aktı məsələnin hansı prinsipilər əsasında həllini açıq şəkildə müəyyən edir. Xalqların öz müqəddəratını təyin etməsi ölkələrin ərazi bütövlüyünə zidd olmalı deyildir. Ermənistana gəldikdə, onlar artıq müqəddəratını təyin ediblər və Ermənistan dövləti artıq mövcuddur. Erməni xalqının ikinci dəfə öz müqəddəratını Azərbaycan ərazisində təyin etməsi qəbuledilməzdir. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları, o cümlədən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən Ermənistan qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin həyata keçirilməsi əsasında mümkün qədər tez həllində maraqlıdır". Brüsseldə səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev Avropa Komissiyasının sədri Xose Manuel Barrozu ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Avropa Komissiyası arasında əlaqələrimizin hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.






**11 avqust 2013-cü il tarixində İtaliya Respublikası Nazirlər Şurasının Prezidenti Enriko Letta Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Azərbaycan Prezidenti və İtaliyanın Nazirlər Şurasının Prezidenti arasında keçirilən görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, mədəniyyət, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilmiş, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Görüş zamanı Azərbaycan Prezidenti bildirmişdir: "İtaliya və Azərbaycan son illər ərzində çox sıx tərəfdaşlığı inkişaf etdirməyə nail olublar. Şübhəsiz ki, qarşıdakı illərdə bu tərəfdaşlıq daha da inkişaf edəcək və çox yüksək səviyyəyə çatacaqdır. Bu gün də qeyd etdiyimiz kimi, biz yaxşı anlayırıq ki, münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırmalıyıq".

**2013-cü ilin 13 avqust tarixində Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezidentlərin görüşü zamanı Prezident İlham Əliyev bildirmişdir: "Münasibətlərimizin gündəliyi çox genişdir. Əməkdaşlıq çoxplanlı və çoxtərəflidir, demək olar ki, bütün sahələri əhatə edir. İqtisadi əlaqələr, humanitar sahə, nəqliyyat, regional təhlükəsizlik və bütün məsələlər üzrə mövqelərimiz oxşardır. Əlbəttə ki, ikitərəfli münasibətlər və regional siyasətin mühüm məsələlərini Sizinlə müzakirə etmək imkanı çox vacibdir. Bu gün biz regional problemləri də, ilk növbədə, regional təhlükəsizlik məsələlərini, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələləri də müzakirə etdik. Bildiyiniz kimi, Azərbaycan torpaqlarının işğalı 20 ildən çoxdur ki, davam edir. İşğal altında olan ərazi mahiyyət etibarilə həyat üçün yararsızdır. Dağıdıla biləcək nə varsa hamısı dağıdılmışdır. Ərazimizin 20 faizi işğal edilmişdir. Beynəlxalq təşkilatların qətnamələri yerinə yetirilmir. BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin bizim ərazidən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir, onlar kağız üzərində qalır. Ona görə də bu məsələnin tezliklə həll edilməsi regionun bütün ölkələrinin maraqlarına uyğundur. Bu məsələnin həlli tarixi ədalətə, beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qərarlarına və qətnamələrinə əsaslanmalıdır. Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi münaqişənin tənzimlənməsi məsələlərində mühüm rol oynayır. Bir daha qeyd etmək istəyirəm ki, münaqişənin tezliklə tənzimlənməsi regionda sabitliyə, müəyyənliyə və əməkdaşlığa gətirib çıxarar".

# 2013





**2013-cü ilin 15 avqust tarixində Qəbələ şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısı keçirilmişdir.**

Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Türkiyə Prezidenti Abdullah Gül, Qırğızıstan Prezidenti Almazbek Atambayev və Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Sapardurdu Toyliyev iştirak etmişdir. Görüşdə çıxışı zamanı Azərbaycan Prezidenti bildirmişdir: "Bizim xalqlarımızı ortaq tarix, mədəniyyət, müştərək dəyərlər birləşdirir. Əsrlər boyu bizim xalqlarımız bir-biri ilə sıx əlaqədə olmuşdur, əməkdaşlıq etmişik, bir yerdə yaşamışıq, bir-birimizə dayaq, arxa olmuşuq. Bu gün isə müstəqil dövlətlər kimi biz bütün məsələlərdə bir yerdəyik, bir yerdə olmalıyıq. Hesab edirəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının başlıca vəzifəsi xalqlar və ölkələr arasındakı birliyi daha da möhkəmləndirməkdir. Biz ikitərəfli formatda çox uğurlu fəaliyyət göstəririk. İqtisadi sahədə gözəl əməkdaşlıq aparılır, beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda ölkələrimiz daim bir-birinə dəstək, arxa olur və bu da təbiidir, çünki qardaş xalqlar bir-birinin yanında olmalıdırlar. BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarda biz bir çox hallarda vahid mövqedən çıxış edirik. Əlbəttə ki, bu, bizim gücümüzü daha da artırır, bizi gücləndirir".

2013
















# 2012

**25–28 yanvar 2012-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsveçrədə işgüzar səfərdə olmuşdur.**

# 2012

İsveçrənin Davos şəhərində 42-ci Dünya İqtisadi Forumunun illik toplantısında müasir dövrün siyasi-iqtisadi problemlərinin, eləcə də qlobal inkişafın doğurduğu əsas problemlərin həlli üçün işgüzar tərəfdaşlığın genişlənməsi ilə bağlı məsələlər müzakirə olunmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev Forum çərçivəsində "Avrasiyanın gələcəyi" adlı sessiyada çıxış etmişdir. Dövlət başçısı ölkəmizin keçdiyi tarixi inkişaf yolundan, demokratik ənənələrə söykənən dövlətçilik tarixindən danışmış, bildirmişdir ki, Şərqdə ilk demokratik respublika məhz Azərbaycanda 1918-ci ildə yaradılmışdır. Prezident İlham Əliyev ölkəmizin XX əsrin sonlarında müstəqilliyini yenidən bərpa etdiyini bildirmiş, 20 il ərzində Azərbaycanda dövlət quruculuğu, demokratiyanın təmin olunması, siyasi-iqtisadi sahələrdə görülən işlər, ictimai-siyasi sabitlik və digər məsələlərə toxunmuşdur. Azərbaycanın zəngin enerji ehtiyatlarına malik olduğunu vurğulayan dövlət başçısı bu gün respublikamızın Avropanın enerji təhlükəsizliyinin təmin olunması işində fəal iştirak etdiyini və bu sahədə böyük nailiyyətlər qazanıldığını, həmçinin əlverişli coğrafi-siyasi məkanda yerləşən ölkəmizin beynəlxalq aləmdə regional əməkdaşlığa mühüm töhfələr verdiyini bildirmişdir. Prezident İlham Əliyev Azərbaycanda təhsilin inkişafına dövlət səviyyəsində göstərilən diqqəti də qeyd etmişdir. Azərbaycanın qarşısında bütün sahələrin inkişafı ilə əlaqədar mühüm vəzifələrin durduğunu bildirən dövlət başçısı ölkəmizin bu istiqamətdə səylərini davam etdirəcəyinə və yeni uğurlara nail olacağına əminliyini bildirmişdir.






**3–4 fevral 2012-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasında işgüzar səfərdə olmuşdur.**

Prezident İlham Əliyev fevralın 3-də 48-ci Münhen Təhlükəsizlik Konfransının əsas tədbirlərindən olan "Enerji, ehtiyatlar və ətraf mühit: yeni təhlükəsizlik parametrləri" mövzusunda müzakirələrdə iştirak etmişdir. Prezident İlham Əliyev çıxışında bildirmişdir: "Enerji təhlükəsizliyi və proqnozlaşdırma olmadan heç bir ölkə gələcək inkişafı ilə bağlı planlar qura bilməz. Biz, xüsusilə də, Fukusimadakı baş verən faciədən sonra müxtəlif enerji mənbələrinə münasibətdə dəyişikliklər və yanaşmalar haqqında bilirik. Beləliklə, tam aydındır ki, təbii qaza tələbat artacaqdır. Azərbaycan ehtiyatları olan, sadiq, açıq siyasətə və Avropanın institutları ilə möhkəm əlaqələrə malik bir ölkədir".






Münhenə səfəri çərçivəsində Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Hillari Klinton ilə görüşmüşdür. Görüşdə Azərbaycanın antiterror koalisiyasının tərkibində Əfqanıstandakı sülhyaratma əməliyyatlarında iştirakı yüksək qiymətləndirilmişdir. Görüşdə, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.



2012

**15 fevral 2012-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığında işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də NATO-nun Baş katibi Anders Foq Rasmussen ilə görüşmüşdür. Azərbaycan–NATO tərəfdaşlığını yüksək qiymətləndirən Baş katib ölkəmizin BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etmişdir. NATO-nun Fərdi Tərəfdaşlığın Əməliyyat Planının təsdiq olunmasının Azərbaycan–NATO əməkdaşlığının genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edən Baş katib ölkəmizin antiterror koalisiyası çərçivəsində Əfqanıstanda sülhyaratma əməliyyatlarında fəal iştirakına görə təşəkkür etmişdir. Prezident İlham Əliyev Azərbaycan ilə NATO arasında etibarlı tərəfdaşlıq əlaqələrinin bundan sonra genişlənəcəyinə əminliyini bildirmişdir.

**6 mart 2012-ci il tarixində Gürcüstan Prezidenti Mixeil Saakaşvili Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezidentlərin görüşü zamanı iki qonşu ölkə arasında münasibətlərin inkişafının nümunəvi xarakter daşıdığı qeyd olunmuşdur. Azərbaycan Prezidenti iki ölkə arasında siyasi, iqtisadi, energetika sahələrində tam anlaşmanın, əlaqələndirmənin və qarşılıqlı dəstəyin mövcud olduğunu vurğulamışdır. Gürcüstan Prezidenti: "Cənab Prezident, Sizin rəhbərliyinizlə bu gün Azərbaycan nəinki sürətlə inkişaf edən ölkədir, həmçinin regionun lideridir və qlobal səviyyədə tanınan bir dövlətdir".

**12 mart 2012-ci il tarixində Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviç Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviç və xanımı Tatyana Yosipoviç ilə birgə görüşü olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin görüşü zamanı Azərbaycan ilə Xorvatiya arasında ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Görüşdə Prezident İlham Əliyev bildirmişdir: "Bu gün müzakirə etdiyimiz kimi, aramızda çox fəal siyasi dialoq mövcuddur. Siyasi münasibətlərimizin səviyyəsi əladır. Səfəriniz bunun yaxşı göstəricisidir. Lakin, hesab edirəm ki, həyatımızın digər sahələrinə də nəzər yetirməliyik. Azərbaycan Xəzər dənizi regionunda olduqca mühüm rol oynayır. Siz öz regionunuzda aparıcı dövlətlərdən birisiniz. Bir sözlə, ölkələrimiz arasında sıx əlaqələr birmənalı olaraq regional əməkdaşlığa çox yaxşı təsir göstərəcəkdir". Prezidentlərin görüşündən sonra Azərbaycan–Xorvatiya sənədlərinin imzalanması mərasimi olmuşdur.

# 2012











**25–27 mart 2012-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Respublikasında işgüzar səfərdə olmuşdur.**

# 2012

Səfər çərçivəsində Prezident İlham Əliyev Seulda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmişdir. Nüvə Təhlükəsizliyi Sammiti XXI əsrdə beynəlxalq birlik üçün ciddi təhlükə yaradan nüvə terrorçuluğunun qarşısını almağa həsr olunan yüksək səviyyəli zirvə görüşüdür. Əllidən çox ölkənin dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri Sammitdə nüvə təhlükəsizliyinin əsas məsələləri, o cümlədən nüvə terrorçuluğuna qarşı mübarizə, nüvə materiallarının və nüvə qurğularının mühafizəsi, nüvə materiallarının qanunsuz dövriyyəsinin qarşısının alınması, həmçinin Fukusima Atom Elektrik Stansiyasında baş verən hadisə fonunda nüvə təhlükəsizliyi problemləri müzakirə olunmuşdur. Sammitin martın 27-də keçirilən birinci plenar iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirmişdir: “Azərbaycan Ermənistanın 1976-cı ildə fəaliyyətə başlamış və hazırda köhnəlmiş Metsamor Atom Elektrik Stansiyasından olduqca narahatdır. Metsamor stansiyası bütöv region və yaxınlıqda olan qonşular üçün potensial fəlakət mənbəyidir. O, son illərini yaşayan reaktorun soyudulması üçün zəruri olan su resurslarının çatışmadığı yüksək dərəcəli seysmik zonada yerləşir. Avropa İttifaqı Şərqi Avropa və keçmiş Sovet İttifaqında tikilmiş 66 sovet reaktoru arasında Metsamor reaktorunu “ən köhnəlmiş və ən etibarsız” hesab etmişdir. Hesabatda Metsamor “bütöv region üçün təhlükə” adlandırılır. Bununla belə, biz nüvə enerjisi qurğusunu tikməyi arzulayan tərəfə səlahiyyətləri verəcək regional nüvə təhlükəsizliyini və etibarlılığını müəyyənləşdirən rejimlərin tətbiq edilməsini təklif edirik. Bu halda öz qonşularından razılığın alınması, həmin sahələrin etibarlılığı və təhlükəsizliyi barədə məlumatların şəffaf şəkildə mübadiləsi, yoxlamaların qəbulu və risklərə görə kompensasiyanın ödənilməsi kimi prosedurlar nəzərdə tutula bilər”.












**30 mart 2012-ci il tarixində Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev və xanımı Raisa Atambayeva ilə birgə görüşü olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin görüşü zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu səfərin əlaqələrimizin və ikitərəfli münasibətlərimizin inkişafına verilən əhəmiyyətin çox yaxşı göstəricisi olduğunu vurğulayaraq demişdir: "Əminəm ki, münasibətlərimizin çox gözəl gələcəyi vardır. Biz bu gün artıq ikitərəfli münasibətlər, regional siyasət məsələləri barədə fikir mübadiləsi apardıq. Hesab edirəm ki, qarşılıqlı münasibətlərimizdə yol verilmiş vaxt itkisinin əvəzini tez bir zamanda çıxacağıq. Çünki bizim razılaşmaların konkret işlərə transformasiyası göz qabağındadır. Bu mənada Sizin səfərinizin müstəsna əhəmiyyəti vardır. Çünki bu, ilk səfərdir. Bizim iqtisadi, enerji və əlbəttə ki, siyasi sahələrdə qarşılıqlı münasibətlərin gələcək inkişafına dair böyük planlarımız mövcuddur. Mənə çox xoşdur ki, Siz bizim ölkəyə səfərə gəlmisiniz. Bu, uzun fasilədən sonra Azərbaycan ilə bir daha tanış olmaq üçün imkandır. Başlıcası isə, çox ümidverici mərhələyə qədəm qoyan ikitərəfli münasibətlərimizin inkişafı yollarını müəyyənləşdirməkdir". Prezidentlərin görüşündən sonra Azərbaycan–Qırğızıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.

**4–6 aprel 2012-ci il tarixində Prezident İlham Əliyev Çexiya Respublikasında dövlət səfərində olmuşdur.**

Prezidentlərin görüşü zamanı ikitərəfli əlaqələrimizin siyasi, iqtisadi, enerji, mədəniyyət və turizm sahələrində inkişaf etdirilməsi barədə razılıq əldə edilmiş və Azərbaycan–Çexiya sənədləri imzalanmışdır.

2012











**2–5 may 2012-ci il tarixində Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdə olmuşdur.**

4 may tarixində Nyu-Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclası keçirilmişdir. İclasda Azərbaycanın təşəbbüsü ilə "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda müzakirələr aparılmışdır. 2011-ci ilin oktyabrında Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməklə müstəqil olduğumuz 20 ildə xarici siyasətin ən böyük uğurlarından birini qazanmışdır. BMT Təhlükəsizlik Şurasına keçirilən seçkilərdə 155 ölkənin səsini qazanaraq tarixi nailiyyətə imza atan ölkəmiz 2012-ci il yanvarın 1-dən Təhlükəsizlik Şurasında səlahiyyətlərinin icrasına başlamışdır. ABŞ, Çin, Rusiya, Böyük Britaniya və Fransa kimi daimi üzvlərlə birgə Azərbaycanın da dünyanın bir nömrəli beynəlxalq təşkilatının ən ali qurumunda iştirakı ölkəmizin tutduğu yolun dünya dövlətləri tərəfindən dəstəklənməsinin əyani təsdiqidir. Bu, həm də beynəlxalq birliyin Azərbaycanda yürüdülən siyasətə və Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi önəmin təzahürü, dünya ictimaiyyətinin ölkəmizə olan inamı və etimadının ifadəsidir. Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclasında çıxışı zamanı bildirmişdir: "Azərbaycanın işğal edilmiş əraziləri terrorçuluqla separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlıq, o cümlədən narkotik maddələrin dövriyyəsi, çirkli pulların yuyulması və silah qaçaqmalçılığı arasında olan əlaqə baxımından böyük narahatlıq mənbəyidir. Ermənistanın terror hədələrinə əlavə olaraq, Azərbaycan beynəlxalq terror qruplarından irəli gələn risk və təhlükələrlə hələ də üzləşir. Ölkəmizin həssas regionlara yaxınlığı bu hədələri bizim üçün daha qabarıq şəklə salır. Buna görə, Azərbaycan təbii olaraq milli səviyyədə genişmiqyaslı tədbirlər görməkdədir və terrorçuluğun qarşısının alınması üçün beynəlxalq səylərə fəal şəkildə töhfə verir".

2012









**19–21 may 2012-ci il tarixində Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdə olmuşdur.**

ABŞ-ın Çikaqo şəhərində keçirilən NATO-nun Sammiti çərçivəsində dövlət və hökumət başçılarının Əfqanıstan üzrə görüşü olmuşdur. Prezident İlham Əliyev görüşdə iştirak etmişdir. NATO-nun sayca 25-ci sammiti 13 illik fasilədən sonra yenidən ABŞ-da keçirilmişdir. Dünyanın 28 ölkəsinin dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdikləri toplantıda 2014-cü ilin sonunadək beynəlxalq qüvvələrin Əfqanıstandan çıxarılması və bundan sonra ölkədə vəziyyətə nəzarətin milli təhlükəsizlik qüvvələrinə verilməsi ilə bağlı hərəkət strategiyası müzakirə olunmuşdur. Sammitdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın ilk illərdən Əfqanıstanda sülhün və təhlükəsizliyin təmin olunmasında bütün səylərini ortaya qoyduğunu vurğulamışdır. Azərbaycanın bu sahədə alyansın ən fəal üzvlərindən biri olduğunu deyən Prezident İlham Əliyev bildirmişdir ki, ölkəmiz Əfqanıstanda öz hərbçilərinin iştirakı ilə sülhyaratma missiyasını davam etdirir. Eyni zamanda, Azərbaycan əfqan hərbçilərinin müxtəlif sahələrdə hazırlanması və treninqlərin keçirilməsi ilə Əfqanıstana öz töhfəsini verir. Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan Əfqanıstana öz yardımını 2014-cü ilədək davam etdirəcək, lazım gəldikdə ondan sonra da əlindən gələni əsirgəməyəcəkdir.

**25–26 iyun 2012-ci il tarixində Prezident İlham Əliyev İstanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) 20 illik yubiley sammitində iştirak etmək üçün Türkiyə Respublikasında işgüzar səfərdə olmuşdur.**

Azərbaycan Prezidenti İlham Əliyev sammitdə çıxışında qeyd etmişdir: "Biz əməkdaşlığın dərinləşməsində maraqlıyıq. Bu gün bölgədə Azərbaycan tərəfindən irəli sürülmüş layihələr ümumi işimizə öz töhfəsini verir. Mən ümid edirəm ki, gələcək illərdə təşkilatımız daha da güclənəcək, bu gün müzakirə edilən və reallığa çevrilən layihələr ölkələrimizi daha da sıx birləşdirəcəkdir".

# 2012













12 iyul 2012-ci il tarixində Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycana rəsmi səfərə gəlmişdir.

2012

İstanbula səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur. Görüş zamanı Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Trans-Anadolu Qaz Boru Kəməri üzrə Hökumətlərarası Müqavilə imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun arasında keçirilən görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Görüş zamanı Prezident İlham Əliyev bildirmişdir: "Xalqlarımız arasında tarixən çox yaxın, qardaşlıq münasibətləri vardır. Bu münasibətlər dövlətlərimizin qarşılıqlı maraqları ilə möhkəmlənir. Biz beynəlxalq məsələlərdə, beynəlxalq qurumlarda da fəal əməkdaşlıq edirik. Bir-birimizi dəstəkləyirik və dəstəkləyəcəyik". Görüş başa çatdıqdan sonra Azərbaycan–Tacikistan sənədlərinin imzalanması mərasimi olmuşdur.








**3–7 avqust 2012-ci il tarixində Prezident İlham Əliyev Londonda işgüzar səfərdə olmuşdur.**

Prezident İlham Əliyev və Baş nazir Devid Kemeron arasında keçirilən görüşdə Azərbaycan–Böyük Britaniya ikitərəfli əlaqələrinin yüksək səviyyədə olduğu vurğulanmışdır. Qeyd edilmişdir ki, Birləşmiş Krallıq ilə Azərbaycan arasında bir sıra sahələrdə, o cümlədən enerji, qeyri-neft sektoru sahələrində uğurlu əməkdaşlıq vardır və bu əlaqələrin perspektivləri böyükdür. Azərbaycan ilə Böyük Britaniya arasında beynəlxalq təhlükəsizlik sahəsindəki münasibətlərin də müzakirə olunduğu görüşdə ölkəmizin NATO və Əfqanıstandakı beynəlxalq koalisiyaya dəstəyi yüksək qiymətləndirilmişdir. Görüşdə regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

**28–29 avqust 2012-ci il tarixində Prezident İlham Əliyev Belarus Respublikasında rəsmi səfərdə olmuşdur.**

Prezidentlərin görüşündə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi barədə razılıq əldə edilmişdir. Prezident İlham Əliyev qeyd etmişdir ki, birgə istehsal edilən məhsulların digər ölkələrin bazarlarına çıxışı perspektivləri vardır. Azərbycan Prezidenti onu da bildirmişdir ki, ölkələrimiz arasında mal dövriyyəsi təkcə enerji deyil, digər sahələrdə də genişləndirilməlidir. Belarus ilə əməkdaşlığın Azərbaycan üçün maraq kəsb etdiyini deyən Prezident İlham Əliyev bu səfərin əlaqələrin inkişafına yeni impuls verəcəyinə əminliyini bildirmişdir. Prezidentlərin görüşü zamanı Azərbaycan–Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.

2012












**17–20 sentyabr 2012-ci il tarixində Prezident İlham Əliyev Fransa Respublikasında işgüzar səfərdə olmuşdur.**

# 2012

Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın görüşü olmuşdur. Görüşdə Azərbaycan ilə Fransa arasında əməkdaşlıq münasibətlərinin müxtəlif istiqamətləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Bu münasibətlərin siyasi, iqtisadi və mədəni sahələrdə uğurla inkişaf etdiyi bildirilmişdir. Fransa şirkətlərinin Azərbaycan iqtisadiyyatında fəal rolu və Fransanın ölkəmizə sərmayə qoymasının əhəmiyyəti vurğulanmış, bu sahədə əməkdaşlığın yaxşı perspektivlərinin olduğu bildirilmişdir. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti, bu istiqamətdə atılmalı olan addımlar da müzakirə edilmişdir. Səfər çərçivəsində, eləcə də Parisin Luvr muzeyində İslam incəsənətinə həsr olunmuş yeni zalların açılış mərasimi keçirilmişdir. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, Fransa Respublikasının Prezidenti Fransua Olland mərasimdə iştirak etmişlər. Fransa Prezidentinin çıxışı zamanı diqqətə çatdırılmışdır ki, yeni zalların açılmasında Fransa ilə yanaşı, Azərbaycan, Küveyt, Oman və Mərakeşin də mühüm rolu olmuşdur. Səfər dövründə Parisdə Heydər Əliyev Fondunun və Azərbaycanın Fransadakı səfirliyinin dəstəyi ilə yaradılan Mədəniyyət Mərkəzinin açılış mərasimi olmuşdur.









**4–5 oktyabr 2012-ci il tarixində Bakıda Heydər Əliyev Mərkəzində İkinci Bakı Beynəlxalq Humanitar Forumu keçirilmişdir.**

**12 oktyabr 2012-ci il tarixində Özbəkistan Prezidenti İslam Kərimov Azərbaycana rəsmi səfərə gəlmişdir.**

# 2012

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak etmişdir. Bakı Beynəlxalq Humanitar Forumu aktual humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir. Forumun keçirilməsi haqqında qərar 2010-cu ilin yanvarında Bakıda təşkil olunmuş Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan–Rusiya Forumunda qəbul edilmişdir. Forumun həmtəsisçiləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putindir. İkinci Bakı Beynəlxalq Humanitar Forumunda 70 ölkəni və 7 mötəbər beynəlxalq təşkilatı təmsil edən 694 nəfər iştirak etmişdir. Onlardan 10 nəfəri sabiq dövlət başçısı, 11-i Nobel mükafatı laureatı, 5-i dünyanın nüfuzlu fəxri professoru (Emeritus professor), 10-u mötəbər beynəlxalq təşkilatları təmsil edən rəhbər vəzifəli şəxs, 55-i görkəmli ictimai və siyasi xadimdir. Dövlətimizin başçısı Forumun açılışında bildirmişdir: "Bakıda Humanitar Forumun keçirilməsi təsadüfi deyildir. Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu bir diyar olmuşdur. Əsrlər boyu müxtəlif xalqların, dinlərin nümayəndələri Azərbaycanda bir ailə kimi, sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Bu müsbət meyillər bu gün də davam edir. Mən əminəm ki, bu meyillər gələcəkdə daha da gücləndiriləcək və Azərbaycan uğurla inkişafına davam edəcəkdir".

İkitərəfli münasibətlərin bütün aspektləri müzakirə edildiyi görüşdə Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir: "Bizim qarşılıqlı fəaliyyətimiz daha sıx, əməkdaşlığımız daha fəal olacaqdır. Özbəkistan bizim üçün dost və qardaş dövlətdir. Münasibətlərimizin dostluq, bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı dəstək əsasında daha da möhkəmlənməsi bizi çox sevindirir. Bu dəstək beynəlxalq strukturlarda ölkələrimizlə bağlı bütün məsələlər barəsində bir-birimizi dəstəkləyəndə də hiss olunur. Təbii ki, beynəlxalq qurumların fəal qarşılıqlı təsiri bizim milli maraqlarımızı daha tam qorumağa, habelə dünya siyasətinin bir sıra məsələlərinə dair həmrəy mövqedən çıxış etməyə imkan verir".








**20–21 noyabr 2012-ci il tarixində Prezident İlham Əliyev Sinqapurda dövlət səfərində olmuşdur.**

Prezident İlham Əliyevin və Sinqapur Prezidenti Toni Tanın görüşü zamanı qeyd edilmişdir ki, Sinqapur bu gün Cənub-Şərqi Asiya regionunun həyatında önəmli rola malikdir və bu baxımdan Sinqapur Azərbaycanın Cənubi Qafqazdakı önəmli mövqeyini xatırladır. Diqqətə çatdırılmışdır ki, çox dinamik inkişaf edən iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq əlaqələrinin genişlənməsi üçün yaxşı perspektivlər vardır. Bildirilmişdir ki, dövlətlərimiz arasında iqtisadi, ticari və enerji sahələrində müəyyən əlaqələr olsa da bu, hər iki ölkənin mövcud potensialını əks etdirmir. Danışıqlar zamanı iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün əlaqələndirici bir qurumun yaradılması barədə razılığa gəlinmişdir.

**12 dekabr 2012-ci il tarixində Ukrayna Prezidenti Viktor Yanukoviç Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Dövlətimizin başçısı İlham Əliyev görüş zamanı bildirmişdir: "Biz dəfələrlə ikitərəfli münasibətlərimizi müzakirə etmişik. Həm də çox şadam ki, irəliyə doğru tərəqqi görünür. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə irəliləyiş göz qabağındadır. Biz istiqaməti uzunmüddətli və çoxşaxəli əməkdaşlığa yönəltmişik və əminəm ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri uğurla davam edəcəkdir". Ukrayna Prezidenti Viktor Yanukoviç isə bu səfərin ikitərəfli münasibətlərin daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan olduğunu vurğulamışdır. Ukrayna dövlətinin başçısı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə ehtiramını bildirərək demişdir: "Mən, həmçinin bu gün Ukraynanın yaxın dostu olan Heydər Əliyevin nurlu xatirəsini yad edənlərə qoşulmaq istəyirəm. Siz bu ənənəni ləyaqətlə davam etdirirsiniz". Azərbaycanın əldə etdiyi uğurlardan da danışan Ukrayna Prezidenti demişdir: "Biz həmişə dostlarımızın uğurlarına sevinirik və mən bilirəm ki, Siz də Ukraynaya eyni səmimi münasibət bəsləyirsiniz. Düşünürəm ki, bizim birlikdə ürəkdən, dostcasına müzakirəyə çıxarılmalı ənənəvi məsələlərimiz vardır. Əlbəttə, mən çox şadam ki, Azərbaycan birinci Avropa Olimpiya Oyunlarını keçirən ölkə olacaqdır".

2012







# 2011

**13 yanvar 2011-ci il tarixində Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezident İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu arasında keçirilən görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilmiş, enerji sahəsində əməkdaşlığın yaxşı potensialının olduğu vurğulanmışdır. Prezident İlham Əliyev görüş zamanı bildirmişdir: "Münasibətlərimizin artıq yaxşı tarixi və səmərəli gələcək perspektivləri vardır. İkitərəfli gündəliyimiz çox genişdir və bu gün ətraflı şəkildə müzakirə etdiyimiz bir çox sahələri əhatə edir. Səmimi müzakirələrə və açıq söhbətə görə çox minnətdaram". Görüş başa çatdıqdan sonra Azərbaycan–Avropa İttifaqı sənədlərinin imzalanması mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu "Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə" imzalamışlar.

**16–18 yanvar 2011-ci il tarixində Prezident İlham Əliyev Latviyada rəsmi səfərdə olmuşdur.**

Prezident İlham Əliyev bildirmişdir ki, keçiriləcək Latviya–Azərbaycan biznes forumunun nəticələri uğurlu olacaq və ölkələrimiz arasında əməkdaşlığın inkişafına fayda verəcəkdir. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar, ölkələrimiz arasında iqtisadi, enerji, informasiya-kommunikasiya texnologiyaları, qarşılıqlı sərmayələrin qoyuluşu, humanitar, təhsil sahələrində əlaqələr müzakirə edilmişdir. Görüş zamanı dövlət başçıları İlham Əliyev və Valdis Zatlers "Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə bəyannaməsi"ni imzalamışlar.

**26 yanvar 2011-ci il tarixində Prezident İlham Əliyev Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə səfər etmişdir.**

Forumun "Avropanın enerji gələcəyi" mövzusundakı sessiyasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Avropanın enerji təhlükəsizliyi sistemində Azərbaycanın rolundan bəhs etmişdir. Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığı, "Cənub dəhlizi" çərçivəsində nəzərdə tutulan layihələrin perspektivləri və digər məsələlər barədə danışmışdır.

# 2011













**14 mart 2011-ci ildə İsveçrə Prezidenti Mişelin Kalmi-Rey Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Azərbaycan Prezidenti İlham Əliyev görüş zamanı bildirmişdir: "Deyə bilərəm ki, əlaqələrimiz uğurla inkişaf edir. Siyasi dialoq və məsləhətləşmələrimiz yüksək səviyyədədir. İkitərəfli iqtisadi sahədə yaxşı perspektivlərimiz vardır. Enerji təhlükəsizliyi məsələləri daim müzakirələrimizin bir hissəsidir. Biz İsveçrəni Azərbaycan üçün vacib tərəfdaş, dost ölkə hesab edirik".



**5 aprel 2011-ci ildə Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas arasında keçirilən görüş zamanı iki ölkə arasında siyasi və iqtisadi münasibətlərin uğurla inkişaf etdiyi vurğulanmış, energetika sahəsində əməkdaşlığın yaxşı perspektivləri olduğu bildirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev görüş zamanı bildirmişdir: "Ölkələrimiz arasında əlaqələr çox sürətlə inkişaf edir və əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafında mühüm mərhələ olacaqdır. Siyasi əlaqələrimiz inkişafdadır və Sizin səfəriniz bunun bariz nümunəsidir. Enerji sahəsində əməkdaşlığın artıq gözəl ənənələri vardır və ümid edirəm ki, yaxın zamanlarda bu əlaqələr yeni mərhələyə qədəm qoyacaqdır".



2011

**7 aprel 2011-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində iştirak etmişdir.**

# 2011

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Forumun "Sərhədsiz dünyaya doğru" mövzusunda açılış sessiyasında iştirak etmişlər. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycanın irəli sürdüyü və BMT-nin Sivilizasiyalar Alyansı, YUNESKO, Avropa Şurası, AŞ-nin Şimal-Cənub Mərkəzi və İSESKO-nun dəstəklədiyi təşəbbüsdür. Bu təşəbbüs mədəniyyətlərarası dialoqun dünyada ən təxirəsalınmaz vəzifələrdən biri olduğunu göstərir. Bakı Forumunda mədəniyyətlərarası dialoqun konseptual, idarəçilik, siyasi və praktiki aspektləri müzakirə olunmuş, dialoqa yönələn maneələr nəzərdən keçirilmiş və onun müxtəlif mühitdə ən yaxşı formada aparılması konkret şəkildə müzakirə edilmişdir. Forum, həmçinin təcrübə mübadiləsi, eləcə də yeni təşəbbüslərin irəli sürülməsi baxımından əlverişli imkanlar yaratmışdır. Dünyanın bütün qitələrindən gəlmiş insanların təmsil olunduğu forumda siyasi liderlər və ictimai xadimlər, beynəlxalq təşkilatların rəhbərləri, dövlət və hökumət nümayəndələri, mədəniyyət nazirləri və mədəniyyət məsələləri üzrə səfirlər, deputatlar, diplomatlar, merlər və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, jurnalistlər, mədəniyyət üzrə ekspertlər və tanınmış ziyalılar bu Forumda iştirak etmişlər. Prezident İlham Əliyev: "Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir. Biz tam əminik ki, dini və milli amildən asılı olmayaraq, istənilən cəmiyyətdə normal münasibətlər qurmaq mümkündür".













28 aprel 2011-ci il tarixində Ukrayna Prezidenti Viktor Yanukoviç Azərbaycan və Ukrayna prezidentlərinin Şurasının üçüncü iclasında iştirak etmək üçün Azərbaycana səfər etmişdir.

İclas zamanı Prezidentlər ölkələrimiz arasında siyasi, iqtisadi, energetika, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində müzakirələr, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparmışlar. Azərbaycan və Ukrayna Prezidentləri Şurasının üçüncü iclasından sonra Azərbaycan Ukrayna sənədlərinin imzalanması mərasimi olmuşdur.





2 may 2011-ci il tarixində Litva Respublikasının Prezidenti Dalya Qribauskayte Azərbaycana rəsmi səfərə gəlmişdir.

Prezidentlərin görüşündə Azərbaycan dövlətinin başçısı İlham Əliyev bildirmişdir: "Bu, Sizin ölkəmizə ilk səfərinizdir. Əminəm ki, səfər çox uğurlu olacaq və biz çox maraqlı müzakirələr aparacağıq. Çünki ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir və bir çox sahəni əhatə edir".









2011

**17 may 2011-ci il tarixində Çexiya Prezidenti Vatslav Klaus Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezidentlər Azərbaycan–Çexiya münasibətlərinin Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından əhəmiyyətini qeyd etmişlər. Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Görüş zamanı Azərbaycan–Çexiya sənədlərinin imzalanması mərasimi olmuşdur.

**1–3 iyun 2011-ci il tarixində Prezident İlham Əliyev İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanonun dəvəti ilə İtaliyanın birləşməsinin 150 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün İtaliyada səfərdə olmuşdur.**

Romada İtaliyanın birləşməsinin 150 illiyinə və Respublika Gününə həsr olunmuş rəsmi parad keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanonun dəvəti ilə bayram mərasimində iştirak etmişdir. Mərasimin iyunun 2-də keçirilməsi isə 65 il əvvəl – 1946-cı il iyunun 2-də referendum yolu ilə monarxiyanın ləğvi və İtaliyanın respublika elan olunması ilə bağlıdır. Bayram mərasimində iştirak etmək üçün paytaxt Romaya 80-dən çox ölkənin nümayəndə heyəti gəlmişdir. Ölkələrin əksəriyyəti dövlət və hökumət başçıları səviyyəsində təmsil olunmuşlar.

2011







**8–9 iyun 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiyada rəsmi səfərdə olmuşdur.**

İki ölkə prezidentləri arasında keçirilmiş görüşdə Azərbaycan ilə Serbiya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunmuşdur. Serbiya Prezidenti Boris Tadiç Azərbaycanı ölkəsinin mühüm tərəfdaşı adlandırmışdır. Eləcə də, bildirmişdir ki, ölkələrimizin siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əlaqələri möhkəmləndirmələri vacibdir. Serbiya Prezidenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir daha öz dövlətinin mövqeyini bəyan etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir ki, Azərbaycan–Serbiya əlaqələri sürətlə inkişaf edir və ölkələrimiz arasında qarşılıqlı inam mövcuddur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Boris Tadiç Belqrad şəhərindəki Taşmaydan parkının açılışında iştirak etmişlər. Parkda ümummilli lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələri ucaldılmışdır.

8 iyun 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının Belqrad şəhərindəki Səfirliyinin binasının açılışında iştirak etmişdir. Azərbaycan Prezidenti açılış mərasimində demişdir: "Artıq Serbiyada Azərbaycan dövlətinin bir parçası da mövcuddur. Bizim səfirliyimiz, əminəm ki, fəal işləyəcək və iki ölkə arasındakı münasibətlərin inkişafı üçün dəyərli töhfəsini verəcəkdir".

2011















**9–10 iyun 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sloveniyada rəsmi səfərdə olmuşdur.**

Prezidentlərin görüşü zamanı Azərbaycan ilə Sloveniya arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edilmiş, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunulmuşdur.









Səfər çərçivəsində Prezident İlham Əliyev və Sloveniya Respublikasının Prezidenti Danilo Türk Novo Qoritsa şəhərində Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan xalqının igid oğlu Mehdi Hüseynzadənin memorialını ziyarət etmişlər.



2011

**21–23 iyun 2011-ci il tarixində Prezident İlham Əliyev Belçika Krallığında işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Prezident İlham Əliyev Brüsseldə Avropa Parlamentinin sədri Yeji Buzek ilə görüşmüşdür. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycan ilə Avropa İttifaqı arasında parlamentlərarası əlaqələrin daha da genişləndirilməsi, "Şərq tərəfdaşlığı" Proqramı, Avronest Parlament Assambleyası çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Görüşdə, həmçinin Assosiasiya sazişi, Azərbaycan ilə Avropa İttifaqı arasında viza rejiminin sadələşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır.

**Brüsselə səfəri çərçivəsində Prezident İlham Əliyevin və Avropa İttifaqının prezidenti Herman Van Rompeyin görüşü olmuşdur.**

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olunmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, "Şərq tərəfdaşlığı" Proqramı, energetika sahəsində əməkdaşlıq, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin genişləndirilməsi perspektivləri və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

**28 iyun 2011-ci il tarixində Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas arasında keçirilən görüşdə siyasi, humanitar və digər sahələrdə ikitərəfli münasibətlərin vəziyyəti və inkişafı ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Azərbaycan dövlətinin başçısı İlham Əliyev demişdir: "Bu, Fələstin Dövlətinin Prezidentinin Azərbaycana ilk səfəridir. Sizi Azərbaycanda görməyimə çox şadam. Bizim regional vəziyyət, Fələstin–İsrail münaqişəsi ilə bağlı çox səmimi, açıq və konstruktiv danışıqlarımız oldu. Biz bu problemə qarşılıqlı anlayış nümayiş etdiririk. Biz sizi beynəlxalq təşkilatlarda dəstəkləməkdə davam edəcəyik və üzərimizə düşən nədirsə onu edəcəyik. Biz, eyni zamanda, ikitərəfli əlaqələrimizi genişləndirməyə ümid edir və ona yeni miqyas vermək niyyətindəyik".

**25 iyul 2011-ci il tarixində Polşa Prezidenti Bronislav Komorovski Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezidentlərin görüşü zamanı Azərbaycan ilə Polşa münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, əlaqələrin bundan sonra da genişlənəcəyi qeyd edilmişdir. Prezident İlham Əliyev bildirmişdir: "Siyasi əlaqələr yüksək səviyyədədir, eyni zamanda, iqtisadi sahədə əlaqələrin yaxşı perspektivləri var. Bu gün biz Sizinlə enerji sektorundakı əməkdaşlıq haqqında da fikir mübadiləsi apardıq. Bir sözlə, biz istəyirik ki, əlaqələrimiz bütün sahələri əhatə etsin və Polşa–Azərbaycan dostluğu uğurla davam etdirilsin".

**2011**











**7 oktyabr 2011-ci il tarixində Fransa Respublikasının Prezidenti Nikola Sarkozi Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Azərbaycan Prezidenti İlham Əliyevin və Fransa Prezidenti Nikola Sarkozinin görüşü zamanı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunmuşdur. Görüş zamanı əsas mövzulardan biri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi olmuşdur.

**Səfər çərçivəsində Bakıda Fransız Liseyinin təməlqoyma mərasimi keçirilmişdir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Fransa Respublikasının Prezidenti Nikola Sarkozi və ölkəmizin birinci xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər. Prezident İlham Əliyev mərasim zamanı çıxışında bildirmişdir: "Siyasi əlaqələrimiz çox intensivdir. Mən dəfələrlə Sizin gözəl ölkənizə səfər etmişəm, bu gün isə Siz bizim qonağımızsınız. Siyasi sahədə əməkdaşlığın perspektivləri də çox gözəldir. Eyni zamanda, Azərbaycan–Avropa İttifaqı əlaqələrinin inkişafında Fransanın çox böyük rolu vardır".

# 2011









10–11 oktyabr 2011-ci il tarixində Bakıda, "Gülüstan" sarayında "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə Beynəlxalq Humanitar Forum keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun açılış mərasimində və birinci plenar iclasında iştirak etmişlər. Qeyd olunmuşdur ki, Bakı Beynəlxalq Humanitar Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir. Forumun keçirilməsi haqqında qərar 2010-cu ilin yanvarında Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan–Rusiya Forumunda qəbul edilmişdir. Forumun işində 20-dən çox ölkənin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən mədəniyyət və incəsənət xadimləri, aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, ictimai xadimlər iştirak etmişlər. Dövlət başçısı Forumun açılışında nitq söyləmişdir. Prezident İlham Əliyev çıxışında bildirmişdir: "Ölkəmizdə aparılan bütün islahatlar – istər siyasi, istər iqtisadi islahatlar bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar, Azərbaycan öz gücünü artırsın və bunu etmək üçün təkcə iqtisadi islahatların aparılması kifayət deyildir. Bunu etmək üçün cəmiyyətdə çox sağlam iqlim olmalıdır. Bunu etmək üçün əlbəttə ki, Azərbaycanda bütün xalqlar həmişə olduğu kimi, mehribanlıq və əməkdaşlıq şəraitində yaşamalıdır".

12 oktyabr 2011-ci il tarixində Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişer Azərbaycana ilk dəfə rəsmi səfərə gəlmişdir.

Prezidentlərin görüşü zamanı siyasi, iqtisadi, enerji və mədəniyyət sahələrində ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilmiş, regional və beynəlxalq münasibətlərin aktual mövzuları ətrafında fikir mübadiləsi aparılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev: "Azərbaycan enerji siyasətini uğurla icra edir. Bizim zəngin neft və qaz yataqlarımız həm ölkənin, həm də tərəfdaşların enerji təhlükəsizliyinə xidmət göstərir. Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi üzrə çox vacib bəyannamə qəbul edilmişdir. Bu bəyannamənin icrası nəticəsində Avropa qitəsi ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq üçün yaxşı şərait və imkanlar yaradılacaqdır. Regional təhlükəsizlik məsələləri də bizim üçün çox vacibdir. Mən Sizə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, son vəziyyətlə bağlı məlumat verdim. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan tərəfi ümid edir ki, yaxın zamanlarda münaqişə öz həllini tapacaq və Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa ediləcəkdir". Avstriya Prezidenti Haynts Fişer: "Biz əmin olmaq istəyirik ki, Avropanın enerji təhlükəsizliyi etibarlı əllərdədir. Sizinlə etibarlı əməkdaşlıq burada öz töhfəsini verir və müxtəlif sahələri əhatə edir. Müxtəlif layihələrin həyata keçirilməsi bu sahədə gözəl bazadır. Sizinlə söhbətin gedişində də bir daha məlum oldu ki, Azərbaycan bu münasibətlərə böyük əhəmiyyət verir. Biz Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə həllinə tərəfdarıq. Bütün iştirakçılara müraciət edirik ki, danışıqlar aparmağa hazır olsunlar, danışıqlar stoluna qayıtsınlar. ATƏT-in Minsk qrupunun fəaliyyətini dəstəkləyirik ki, onlar da yaxşı iradə göstərsinlər, münaqişə həllini tapsın". Səfər zamanı Azərbaycan–Avstriya sənədləri imzalanmış və Azərbaycan–Avstriya biznes forumu keçirilmişdir.

2011












**19–21 oktyabr 2011-ci ildə Prezident İlham Əliyev Qazaxıstan Respublikasında rəsmi səfərdə olmuşdur.**

Azərbaycan Respublikasının Prezident İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin görüşündə Prezident İlham Əliyev bildirmişdir: "Qazaxıstan bizim üçün həmişə dost və qardaş dövlət olmuşdur. Müstəqillik illərində bu münasibətlər daha da möhkəmlənmişdir. Bu gün iqtisadiyyat, nəqliyyat, kənd təsərrüfatı sahələrində müzakirə etdiyimiz layihələr ikitərəfli əməkdaşlığı möhkəmlətmək üçün potensialımızdan daha geniş istifadə etməyimizə imkan verəcəkdir".







**Qazaxıstana səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 21 oktyabr 2011-ci ildə Almatıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının I Zirvə Toplantısında iştirak etmişdir.**

Prezident İlham Əliyevin I Zirvə Toplantısındakı çıxışından: "Türk dünyası böyük dünyadır. Biz elə etməliyik ki, türk dünyası daha da sıx birləşsin. Bunu etmək üçün bütün imkanlar vardır. İlk növbədə güclü siyasi iradə vardır. Bu zirvə görüşlərinin mütəmadi keçirilməsi, bu gün birinci Əməkdaşlıq Şurasının keçirilməsi, qəbul ediləcək qərarlar çox ciddi siyasi iradənin mövcudluğunu göstərir. Digər tərəfdən, bizim iqtisadi maraqlarımız da üst-üstə düşür".




**2011**

**11 noyabr 2011-ci ildə Macarıstan Respublikasının Prezidenti Pal Şmitt Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir.**

Prezidentlərin görüşü zamanı ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Prezident İlham Əliyev görüş zamanı demişdir: "İkitərəfli əlaqələrimiz uğurla inkişaf edir. Biz artıq Sizinlə bu barədə fikir mübadiləsi apardıq. Mən tam əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafına dəyərli töhfəni verəcəkdir. Siyasi əlaqələr iqtisadi sahədə əlaqələrin inkişafına da güclü təkan verir. Əminəm ki, bu gün keçiriləcək biznes forum da iqtisadi sahədə əlaqələrin inkişafı üçün çox əhəmiyyətli olacaqdır". Səfər zamanı Azərbaycan–Macarıstan sənədlərinin imzalanması mərasimi olmuş və hər iki ölkənin iş adamlarının iştirak etdiyi biznes forum keçirilmişdir.

**14 noyabr 2011-ci ildə Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun görüşü zamanı ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Prezident İlham Əliyev bildirmişdir: "Siyasi əlaqələr yüksək səviyyədədir və qarşılıqlı səfərlərin həyata keçirilməsi bunun bariz nümunəsidir. İqtisadi sahədə ticarət dövriyyəsi artıb. Əlbəttə, əlaqələrimizdə enerji amili də mühüm rol oynayır və bu sahədə də şirkətlər arasında danışıqlar aparılır. Biz bütün sahələrdə uğurlu inkişafı görürük və əminəm ki, Sizin səfərinizdən sonra da bu müsbət dinamika davam etdiriləcəkdir." Görüş zamanı Azərbaycan–Bolqarıstan sənədlərinin imzalanması və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun və Azərbaycan Prezidenti İlham Əliyevin ali ordenlərlə təltif olunma mərasimi keçirilmişdir. Azərbaycan Prezidenti Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordenini Bolqarıstan Prezidenti Georgi Pırvanova təqdim etmiş, Bolqarıstan Prezidenti Bolqarıstan Respublikasının ən ali mükafatını – "Stara Planina" ordenini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etmişdir.

2011














# 2010

**27–28 yanvar 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 40-cı Dünya İqtisadi Forumunun illik Toplantısında iştirak etmək üçün İsveçrədə işgüzar səfərdə olmuşdur.**

Prezident İlham Əliyev Forumun "Qlobal enerji mənzərəsi" mövzusunda keçirilən iclasında iştirak etmişdir. Prezident İlham Əliyev iclasda çıxış etmiş, ölkəmizdə energetika sahəsində görülən işlərdən danışmışdır. Dövlət başçısı ölkəmizin qlobal enerji təhlükəsizliyində oynadığı roldan söhbət açaraq demişdir ki, Azərbaycan aparılmış düzgün siyasət nəticəsində və tərəfdaşların birgə səyi ilə beynəlxalq əhəmiyyətli layihələr həyata keçirmiş, Avropanın enerji təhlükəsizliyinə önəmli töhfə vermişdir.




**2–6 fevral 2010-cu ildə Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının kansleri Angela Merkelin dəvəti ilə Almaniyaya işgüzar səfərə gəlmişdir.**

Səfər çərçivəsində Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransının "Təbii sərvətlərin təhlükəsizliyi və dəyişən qlobal güc" mövzusunda aparılan müzakirələrdə iştirak etmişdir. Prezident İlham Əliyev müzakirələrdə çıxış etmiş, neft hasil edən qədim ölkələrdən biri olan Azərbaycanda aparılmış düzgün siyasət nəticəsində nüfuzlu neft şirkətləri ilə irimiqyaslı layihələrin icrasına başlanıldığını qeyd etmişdir. Prezident İlham Əliyev: "2007-ci ilədək qaz idxal edən Azərbaycan hazırda əsas qaz hasilatçılarından birinə çevrilir. Azərbaycanın enerjidaşıyıcıları müxtəlif istiqamətlərə nəql olunur. Bunun üçün boru kəmərləri infrastrukturu yaradılmışdır. Azərbaycan enerjidaşıyıcılarının nəqlində şaxələndirmə məsələlərinə böyük önəm verir". Prezident İlham Əliyev bölgəmizdə sülhün, təhlükəsizliyin və əməkdaşlığın inkişafına ciddi maneə olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında danışmışdır. Bildirmişdir ki, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olunmuş, 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.







2010

**6–8 aprel 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Estoniyada dövlət səfərində olmuşdur.**

# 2010

Prezident İlham Əliyevin Estoniya Prezidenti Toomas Hendrik İlves ilə görüşündə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev və Estoniya Prezidenti Toomas Hendrik İlves birgə Bəyannamə imzalamışlar.











**16 may 2010-cu il tarixində İordaniya Kralı II Abdullah Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezident İlham Əliyev və İordaniya Kralı II Abdullah Azərbaycan ilə İordaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulamış, ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparmışlar. Prezident İlham Əliyev: "Beynəlxalq təşkilatlar çərçivəsində bizə verdiyiniz dəstəyə görə minnətdarıq. Bu, bizim üçün çox vacibdir. Ümidvarıq ki, həm bizim üçün, həm də region üçün vacib olan dostluq, qardaşlıq əlaqələrimiz davam edəcəkdir".





**30 iyun 2010-cu il tarixində Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov və xanımı Zorka Pırvanova ilə birgə görüşü olmuşdur. Prezidentlərin görüçündə ikitərəfli, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır. Prezident G.Pırvanov: "Nazirliklər, digər təsisatlar səviyyəsində münasibətlər çox fəal inkişaf edir. Lakin bu da çox vacibdir ki, dövlət başçılarının münasibətləri bütün sahələrdə əlaqələrin inkişafına təkan verir".



**15 iyul 2010-cu il tarixində Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləziz Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezidentlərin görüşündə ikitərəfli münasibətlərin inkişafı üçün potensial imkanların olduğu vurğulanmış, bu səfərin əlaqələrin gələcək inkişafı baxımından önəmi qeyd edilmişdir. Prezident İlham Əliyev: "Biz ikitərəfli münasibətlərə çox böyük əhəmiyyət veririk və hesab edirik ki, ikitərəfli formatda çox iş görmək olar. Bu gün biz bir neçə məsələ ətrafında sizinlə fikir mübadiləsi apardıq. Bizim siyasi əlaqələrimiz müsbətdir. Əminəm ki, beynəlxalq təşkilatlarda bizim əməkdaşlığımız uğurla davam etdiriləcəkdir. Xüsusilə BMT-də və İslam Konfransı Təşkilatında bizim əməkdaşlığımızın böyük əhəmiyyəti vardır".





2010

**16 avqust 2010-cu il tarixində Türkiyə Prezidenti Abdullah Gül Azərbaycana rəsmi səfərə gəlmişdir.**

**15–16 sentyabr 2010-cu il tarixində Prezident İlham Əliyev Türkdilli ölkələrin dövlət başçılarının X Zirvə toplantısında iştirak etmək üçün Türkiyə Respublikasında işgüzar səfərdə olmuşdur.**

**15 sentyabr 2010-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli ölkələrin dövlət başçılarının X Zirvə toplantısındakı çıxışında bildirmişdir: "Türk dünyası böyük dünyadır.**

# 2010

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Abdullah Gül Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq bildirmiş, ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparmışlar. Azərbaycan Prezidenti İlham Əliyev: "Türkiyə ilə Azərbaycan arasında dostluq-qardaşlıq münasibətləri uğurla inkişaf edir, bütün sahələri əhatə edir və bu əməkdaşlığın çox gözəl nəticələri vardır. Həm ikitərəfli formatda, həm regional müstəvidə Türkiyə–Azərbaycan qardaşlığı və birgə fəaliyyəti çox önəmli bir amilə çevrilibdir".

Səfər zamanı İstanbulda, "Çırağan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün görüşü olmuşdur. Görüşdə ölkələrimiz arasında dostluq əlaqələrinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilmiş, türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısının əhəmiyyətindən danışılmışdır.

"Çırağan" sarayında Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla da görüşmüşdür. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edilmiş, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti barədə söhbət açılmışdır. Ölkələrimiz arasında enerji sahəsində, həmçinin Bakı–Tbilisi–Ceyhan və "Şahdəniz" layihəsinin inkişaf etdirilməsinə dair Türkiyə ilə əməkdaşlıq və regional məsələlər müzakirə olunmuşdur. Görüşdə Azərbaycan ilə Türkiyə arasında Yüksək səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında sənəd imzalanmışdır.

Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur. Biz xəritəyə baxsaq görərik ki, əgər o tarixi ədalətsizlik törədilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan da bir məkan kimi yaşayacaqdı. Ancaq buna baxmayaraq, bizi birləşdirən təkcə coğrafi koordinatlar deyildir. Bizi birləşdirən aramızdakı münasibətlərdir, qardaşlığımızdır, ortaq keçmişimizdir, bu günümüzdür".















22–23 sentyabr 2010-cu il tarixində Prezident İlham Əliyev Nyu-Yorkda keçirilən BMT Baş Məclisinin 65-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına işgüzar səfər etmişdir.

Nyu-Yorka səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamanın görüşü olmuşdur.

2010

Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının mənzil-qərargahında təşkilatın Baş Məclisinin 65-ci sessiyası çərçivəsində ümumi müzakirələr keçirilmişdir. Prezident İlham Əliyev BMT Baş Məclisinin 65-ci sessiyasında çıxışında bildirmişdir: "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası qəbul etdiyi dörd qətnamədə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə tam dəstəyini vermiş və torpaqların gücdən istifadə edərək ələ keçirilməsinin qəbuledilməzliyini vurğulamışdır. BMT, həmçinin Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımış, işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal, tam şəkildə və qeyd-şərtsiz çıxarılmasına çağırmışdır. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi və digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Konfransı Təşkilatı eyni mövqeni tutmuşlar. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyətin yekdil mövqeyinə baxmayaraq, Azərbaycan əraziləri işğal altında qalmaqda davam edir. Bu günə qədər münaqişənin mümkün qədər tez və davamlı həll variantını tapmaq məqsədi ilə vicdanla danışıqlar aparmaq əvəzinə, Ermənistan vəziyyətin ağırlaşmasına üstünlük verir ki, bu da öz növbəsində gözlənilməz nəticələrə gətirə bilər".

Görüşdə Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunmuşdur. ABŞ Prezidenti Barak Obama Prezident İlham Əliyevin liderlik rolunu qeyd edərək, Azərbaycanın regionda ən çox uğurlar qazanan və ən nüfuzlu ölkələrdən biri olduğunu vurğulamışdır. Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu bildirilərək, iqtisadi, enerji, təhlükəsizlik sahələrində əlaqələrimizin regional əməkdaşlığın möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd edilmişdir. Azərbaycan ilə ABŞ-ın beynəlxalq antiterror əməliyyatlarında birgə fəaliyyətinə toxunulan görüşdə Azərbaycanın bu əməliyyatlarda iştirakı yüksək qiymətləndirilmişdir. Energetika sahəsində ölkələrimiz arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilərək, Azərbaycanın beynəlxalq enerji əməkdaşlığının genişləndirilməsinə töhfəsi xüsusi qeyd olunmuşdur. Dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq, problemin tezliklə nizama salınmasının regionda sülhün və sabitliyin təmin edilməsi baxımından zəruri olduğunu bildirmişlər. Prezident İlham Əliyev münaqişənin həlli ilə əlaqədar danışıqlar prosesinə toxunaraq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü prinsipi əsasında həll olunmasının vacibliyi ilə bağlı mövqeyini bir daha diqqətə çatdırmışdır. Dövlət başçılarının görüşündə Azərbaycanda demokratik inkişaf prosesləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.







**27–28 sentyabr 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanda rəsmi səfərdə olmuşdur.**

**18 noyabr 2010-cu il tarixində Bakıda Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Dmitri Medvedev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, İran Prezidenti Mahmud Əhmədinejad və Türkmənistan Prezidenti Qurbanqulu Berdimühəmmədovun iştirakı ilə Xəzəryanı ölkələrin dövlət başçılarının III Zirvə Görüşü keçirilmişdir.**

# 2010

Prezidentlərin görüşü zamanı Prezident İslam Kərimov bildirmişdir: "Bizim bu məsələlər barəsində – həm Azərbaycanın Mərkəzi Asiya problemlərinə, həm də Özbəkistanın Dağlıq Qarabağ məsələsinə dair mövqelərimiz və baxışlarımız eynidir. Fürsətdən istifadə edib jurnalistlərin qarşısında bir daha demək istərdim ki, Özbəkistanın Dağlıq Qarabağ barədə mövqeyi dəyişmir, dəyişməzdir və daimidir. Bu mövqenin mahiyyəti bundan ibarətdir ki, Dağlıq Qarabağ problemi dinc, siyasi yolla həll edilməlidir. Lakin bir prinsipə dönmədən riayət edilməlidir. Bu, sərhədlərin toxunulmazlığı, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü prinsipidir." Prezident İlham Əliyev isə öz növbəsində bildirmişdir: "Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində prinsipial mövqeyə görə Özbəkistana və şəxsən Sizə çox minnətdarıq. Siz bu mövqeyi indi bir daha ifadə etdiniz. Həm ötən illərdəki çıxışlarda, həm də beynəlxalq təşkilatlarda səsvermə zamanı Özbəkistan həmişə məhz prinsipiallığı, ardıcıllığı və Azərbaycan ilə dostluq və qardaşlıq münasibətlərinə, habelə beynəlxalq normalara sadiqliyi ilə fərqlənmişdir. Biz qonşu dövlətlərin bütün sərhədlərinə hörmət edirik və əlbəttə ki, qonşularımızın, ilk növbədə, uzun illər boyu beynəlxalq hüququn norma və prinsiplərini, BMT Təhlükəsizlik Şurasının, BMT Baş Məclisinin və nüfuzlu beynəlxalq təşkilatların qətnamələrini kobud surətdə pozan Ermənistanın bu cür münasibətinə ümid bəsləyirik".

Prezident İlham Əliyev Zirvə Görüşü zamanı çıxışında bildirmişdir: "Bütün Xəzəryanı ölkələr enerji resursları baxımından çox zəngin ölkələrdir. Ölkələrimiz nəinki öz tələbatlarını ödəyir, eyni zamanda, dünyanın enerji təhlükəsizliyinə çox önəmli töhfə verirlər. Ölkələrimizdə hasil edilən neft və qaz demək olar ki, dünya enerji bazarında həlledici təsirə malikdir. Biz çalışırıq ki, səylərimizi birləşdirək. Biz hamımız istehsalçıyıq və istehsalçıların maraqları əlbəttə ki, üst-üstə düşür. Biz enerji resursları sahəsində bir-birimizlə rəqabət aparmırıq, əksinə, uğurlu əməkdaşlıq edirik. Bu əməkdaşlıq ölkələrimizin bütün maraqlarına xidmət göstərir. Azərbaycan enerji resurslarının nəqli ilə bağlı çoxşaxəli fəaliyyət göstərir. Biz enerji təhlükəsizliyi məsələlərinə töhfəmizi verməyə çalışırıq. Azərbaycanın neft-qaz resurslarının dünya bazarlarına müxtəlif yollarla çatdırılması üçün bizdə müasir infrastruktur yaradılmışdır. Bu infrastruktur qonşu ölkələrin maraqlarının təmin edilməsi üçün də təqdim oluna bilər. Yəni, bir sözlə, biz tranzit imkanlarımızı qonşular üçün təqdim etməyə hazırıq." Zirvə Görüşündən sonra prezidentlər Xəzərdə təhlükəsizlik sahəsində əməkdaşlığa dair Sazişi və prezidentlərin birgə bəyanatını imzalamışlar.













**19–21 noyabr 2010-cu il tarixində Prezident İlham Əliyev NATO-nun zirvə toplantısında iştirak etmək üçün Portuqaliyada işgüzar səfərdə olmuşdur.**

Portuqaliyanın paytaxtı Lissabonda NATO-nun zirvə toplantısı çərçivəsində Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə (ISAF) töhfə verən ölkələrin dövlət və hökumət başçılarının iclası keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxışında bildirmişdir ki, Azərbaycanın Şimali Atlantika Alyansı ilə əməkdaşlığı faydalıdır. Ölkəmizin NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramında və Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında fəal olduğunu deyən Prezident İlham Əliyev Azərbaycanın NATO-nun dünyada sülhyaratma əməliyyatlarında da yaxından iştirak etdiyini diqqətə çatdırmışdır. Azərbaycan Prezidenti, həmçinin sülhməramlı qüvvələrimizin NATO-nun Əfqanıstanda apardığı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri əməliyyatına hərbi və mülki sahədə töhfə verdiyini vurğulamışdır.

**1 dekabr 2010-cu il tarixində Prezident İlham Əliyev ATƏT-in sammitində iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astana şəhərində işgüzar səfərdə olmuşdur.**

Sammitdə ümumilikdə 56 üzv və 12 tərəfdaş ölkənin dövlət və hökumət başçıları, nümayəndə heyətləri, həmçinin beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişdirlər. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev sammitin keçirildiyi "Müstəqillik" sarayında nümayəndə heyətlərinin rəhbərlərini, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılamışdır. Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in sammitində çıxışında bildirmişdir: "Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə aparılan qeyri-qanuni fəaliyyət ATƏT-in faktaraşdırıcı missiyasının 2005-ci ildə regiona etdiyi səfərdən sonra hazırlanmış məruzədə əks olunub. Ermənistanın danışıqlar prosesindəki davranışı bizi belə qənaətə gətirir ki, Ermənistan sülh istəmir, işğal edilmiş əraziləri azad etmək fikrində deyil, sadəcə bacardığı qədər status-kvonu saxlamaq və danışıqlar prosesini müddətsiz etməyi arzulayır. ATƏT-in Minsk qrupu 1992-ci ildə yaradılmışdır, danışıqlar təxminən 20 ildir aparılır, lakin heç bir nəticə yoxdur. Azərbaycan Praqa prosesi çərçivəsində son altı il ərzində Minsk qrupunun həmsədr ölkələri tərəfindən hazırlanmış təklifləri qiymətləndirir. Biz danışıqları davam etdirməyə, onları mümkün qədər tez yekunlaşdırmaq və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanacaq həll variantına nail olmağa hazırıq".

# 2010
















**22–23 dekabr 2010-cu il tarixində Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammitində iştirak etmək üçün Türkiyə Respublikasında işgüzar səfərdə olmuşdur.**

# 2010

Prezident İlham Əliyev çıxışında bildirmişdir: "Bütün uğurlu iqtisadi və infrastruktur layihələrinin icrası ilə bərabər, qeyd etməliyəm ki, bölgədə sabitlik, sülh, təhlükəsizlik təmin olunmalıdır. Əfsuslar olsun ki, bizim ölkələrimizdə mövcud olan, həllini gözləyən münaqişələr, problemlər, təhdidlər imkan vermir ki, istədiyimizə tam şəkildə nail ola bilək. Hər bir ölkənin uğurlu siyasi, yaxud da ki, iqtisadi inkişafı sabitlik şəraitində mümkündür. Azərbaycanda siyasi sabitlik artıq çoxdandır ki, bərqərar olunmuşdur. Ancaq həll olunmamış münaqişələr, Azərbaycan torpaqlarının 20 faizinin hələ də Ermənistanın işğalı altında qalması çox böyük regional təhlükə mənbəyidir. Azərbaycanlılara qarşı Azərbaycanın əzəli torpağı olan Qarabağda və ətraf bölgələrdə etnik təmizləmə siyasəti aparılmışdır, bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə salınmışdır. Baxmayaraq ki, beynəlxalq təşkilatlar, xüsusilə Birləşmiş Millətlər Təşkilatı və onun Təhlükəsizlik Şurası məsələnin həlli ilə bağlı 4 qətnamə qəbul edib və o qətnamələrdə Ermənistan qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur, hələ də Ermənistan tərəfi bu beynəlxalq hüquq normalarına əməl etmir və işğalçı siyasətini davam etdirir. İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlar buna bənzər qərarlarla çıxış etmişlər. Əlbəttə ki, bu, məsələnin ədalətli və hüquqi müstəvidə həll olunması üçün çox möhkəm zəmindir. Ancaq biz reallıqda hər hansı bir irəliləyiş görmürük və Azərbaycan uzun illərdir ki, bu işğaldan əziyyət çəkir. Biz bu vəziyyətlə əlbəttə ki, barışmayacağıq. Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz çalışırıq ki, bunu danışıqlar yolu ilə, sülh yolu ilə edək. Azərbaycanın ərazi bütövlüyü bütün dünya ölkələri tərəfindən tanınır, müzakirə mövzusu deyildir və heç vaxt olmayacaqdır".














# 2009

**28 yanvar – 1 fevral 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 39-cu Dünya İqtisadi Forumunun "Böyük oyun təkrarlanır" mövzusundakı iclasında iştirak etmişdir.**

İclasda Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, İranın xarici işlər naziri Məniçehr Mottəki, Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan iştirak etmişlər. İclasda Azərbaycanla Avropa İttifaqı arasında işbirliyi, ABŞ–İran münasibətləri, bölgədə təhlükəsizliyin və əmin-amanlığın təmin olunması, Nabukko layihəsinin gələcəyi, Türkiyə–Ermənistan münasibətləri, Ermənistan ilə Azərbaycan arasında münaqişə, İranın Orta Asiya və Qafqaz ölkələri ilə əlaqələrinin gələcəyi, İpək yolu layihəsi çərçivəsində Azərbaycan–Gürcüstan–Türkiyə əməkdaşlığı, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin çəkilişi məsələləri müzakirə edilmişdir.

**10–11 fevral 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Küveytdə rəsmi səfərdə olmuşdur.**

Səfər çərçivəsində Əl-Küveytdə Prezident İlham Əliyevin və Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın görüşü olmuşdur. Görüşdə Azərbaycanla Küveyt arasında iqtisadiyyat, ticarət, turizm, investisiya sahələrində əlaqələrin inkişaf etdirilməsi müzakirə olunmuşdur; beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Görüş zamanı Əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah Prezident İlham Əliyevə ölkəsinin ən ali mükafatı olan "Mübarək əl-Kəbir" ordenini təqdim etmişdir.

2009














**15–17 fevral 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstanda dövlət səfərində olmuşdur.**

Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Karolos Papulyas iki ölkə arasında siyasi, iqtisadi, enerji sahələrində əlaqələrin inkişafından məmnunluq ifadə etmiş, ikitərəfli, beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

**10–11 mart 2009-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranda rəsmi səfərdə olmuşdur.**

Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə uğurla inkişaf etdiyini vurğulamışlar.

**11 mart 2009-cu ildə Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatının 10-cu zirvə görüşü keçirilmişdir.**

Görüşdə təşkilatın üzvü olan ölkələrin dövlət və hökumət rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri iştirak etmişlər. 2006-cı ilin mayında Bakıda keçirilmiş 9-cu zirvə görüşündən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zirvə görüşünü açıq elan etmişdir. Dövlət başçısı Azərbaycanın sədrliyi ilə təşkilatın 9-cu zirvə görüşündən sonra çox uğurlu bir yol keçdiyini, daha da inkişaf etdiyini, dünyada öz mövqelərini möhkəmləndirə bildiyini, təşkilat daxilində inteqrasiya proseslərinin gücləndiyini vurğulamışdır. Gündəliyə uyğun olaraq, İran Prezidenti Mahmud Əhmədinejad İqtisadi Əməkdaşlıq Təşkilatının 10-cu zirvə görüşünün sədri seçilmişdir. 10-cu zirvə görüşünə sədrlik edən İran Prezidenti Tehran görüşünün dünyada qlobal dəyişikliklər dövrünə təsadüf etdiyini bildirmişdir. İran Prezidenti İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətinin genişləndirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin xidmətlərini xüsusi qeyd edərək, Azərbaycanın dövlət başçısına minnətdarlığını bildirmişdir. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış etmişdir. "Son üç il ərzində Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının inkişafı üçün öz səylərini göstərmişdir. Biz təşkilatdakı fəaliyyətimizə çox böyük önəm veririk. Hesab edirik ki, təşkilatın güclənməsi, bölgədə və dünyada mövqelərinin möhkəmlənməsi hər bir üzv ölkə üçün əlavə fayda gətirə bilər", – deyə Prezident İlham Əliyev öz çıxışında bildirmişdir.

2009











**27–29 aprel 2009-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığında işgüzar səfərdə olmuşdur.**

Səfər zamanı Prezident İlham Əliyev NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer ilə görüşmüşdür. Azərbaycanın regionda xüsusi rolunu vurğulayan Yaap de Hoop Sxeffer bildirmişdir ki, NATO Azərbaycana bölgədə mühüm rol oynayan tərəfdaş ölkə kimi yanaşır və Prezident İlham Əliyevin bu səfəri NATO–Azərbaycan münasibətlərinin genişlənməsinə xidmət edəcəkdir. Prezident İlham Əliyev NATO–Azərbaycan əlaqələrinin inkişaf etdiyini, Azərbaycanın NATO-nun müxtəlif proqramlarında və tədbirlərində fəal iştirak etdiyini bildirmişdir. "Fərdi tərəfdaşlığın əməliyyat planı"nda ölkəmizin fəal iştirak etdiyini vurğulayan dövlət başçısı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirmişdir.











Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev Avropa Komissiyasının sədri Xose Manuel Barrozu ilə görüşmüşdür. Səfər çərçivəsində, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin genişlənməsinin Azərbaycanın Avropa dəyərlərinə verdiyi önəmin göstəricisi olduğunu deyən Barrozu gələcəkdə tərəflər arasında daha konkret layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulamışdır. Prezident İlham Əliyev Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirərək qeyd etmişdir ki, Azərbaycan bundan sonra da Avropaya inteqrasiyanı davam etdirmək əzmindədir və Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verməyə hazırdır.



2009

**6–8 may 2009-cu il tarixində Azərbaycan Prezidenti Çexiya Respublikasında işgüzar səfərdə olmuşdur.**

Prezident İlham Əliyev Praqada Çexiya Prezidenti Vatslav Klaus ilə görüşmüşdür. Ölkələrimizin siyasi əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayan Çexiya Prezidenti, bu görüşün ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivi barədə fikir mübadiləsi aparılmasına yaxşı imkanlar yaratdığını qeyd etmişdir. Çexiyanın dövlət başçısı Azərbaycanda və regionda gedən siyasi, iqtisadi proseslərin ölkəsində yaxından izlənildiyini demişdir. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin son illərdə uğurla inkişaf etdiyini vurğulamış, ölkəmizdə gedən iqtisadi inkişaf prosesi haqqında danışmışdır. Dövlət başçısı Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin uğurla inkişaf etdiyini və genişləndiyini bildirmiş, respublikamızın Avropanın enerji təhlükəsizliyində yaxından iştirak etdiyini vurğulamışdır. Ermənistanın Azərbaycana davam edən təcavüzü barədə ətraflı məlumat verən Prezident İlham Əliyev bunun regionda sülhə və sabitliyə ciddi maneə olduğunu qeyd etmişdir.

**8 may 2009-cu ildə Prezident İlham Əliyev Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammitində iştirak etmişdir.**

Avropa İttifaqı ölkələrinin, eləcə də "Şərq tərəfdaşlığı" təşəbbüsünün üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirak etdiyi Sammiti giriş sözü ilə Avropa İttifaqına həmin vaxt sədrlik edən Çexiyanın Baş naziri Mirek Topolanek açaraq qonaqları salamlamış, "Şərq tərəfdaşlığı" proqramının əhəmiyyətini xüsusi vurğulamışdır. Azərbaycan Prezidenti İlham Əliyev Sammitdə çıxış etmişdir. "Şərq tərəfdaşlığı" Sammitinin əhəmiyyətini qeyd edən dövlət başçısı bu proqramın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin daha da yaxınlaşmasına və genişlənməsinə təkan verəcəyini demişdir. Ölkəmizin siyasi, iqtisadi və digər sahələrdə inkişafını, aparılan demokratik islahatları qeyd edən dövlət başçısı bildirmişdir ki, bu islahatlar Azərbaycanın Avropa ailəsinə daha da yaxınlaşmasına kömək edəcəkdir. Azərbaycanın Avropa üçün çox önəmli tərəfdaş olduğunu bildirən Prezident İlham Əliyev ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynadığını diqqətə çatdırmışdır. Prezident İlham Əliyev Ermənistanın Azərbaycana davam edən təcavüzü barədə də tədbir iştirakçılarına məlumat vermişdir.

**2 iyul 2009-cu il tarixində Polşa Respublikasının Prezidenti Lex Kaçinski Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Lex Kaçinski ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə inkişafından məmnunluq ifadə etmişlər. Polşa Prezidentinin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin daha da genişlənməsində yeni bir mərhələ olduğu qeyd edilmişdir. Polşa Prezidenti L.Kaçinski: "Ərazi bütövlüyünün pozulması, xüsusən də güc tətbiqi ilə pozulması qəbuledilməzdir və buna yol verməmək olmaz. Ərazi bütövlüyü prinsipinə əməl edilməli, hörmətlə yanaşılmalıdır. Biz ərazi bütövlüyünə əməl edilməsini istəyirik".

# 2009












**12–15 iyul 2009-cu il tarixində Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfərə gəlmişdir.**

# 2009

Səfər çərçivəsində Londonda Prezident İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri Qordon Braunun görüşü olmuşdur. Britaniyanın Baş naziri Azərbaycan Prezidentini ölkəmizdə əldə olunan iqtisadi uğurlar münasibətilə təbrik etmişdir. O, Azərbaycanla müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulamışdır. Azərbaycanın antiterror koalisiyasında iştirakına toxunan Qordon Braun ölkəmizin bu istiqamətdə fəaliyyətinin Böyük Britaniya hökuməti tərəfindən yüksək qiymətləndirildiyini bildirmişdir. Prezident İlham Əliyevi demokratiya sahəsində əldə edilmiş uğurlar münasibətilə də təbrik edən Q.Braun Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsini müsbət hal kimi dəyərləndirmişdir. Prezident İlham Əliyev Azərbaycanla Böyük Britaniya arasında iqtisadi sahədə, enerji və qeyri-neft sektorunda əldə edilən uğurlardan danışmış, habelə Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünün regional inkişafa böyük əngəl törətdiyini bildirmişdir. Görüş zamanı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın BP şirkəti arasında qarşılıqlı anlaşma memorandumu imzalanmışdır.






**28–29 sentyabr 2009-cu il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyada rəsmi səfərdə olmuşdur.**

Buxarestdə Rumıniya Prezidentinin iqamətgahında – "Kotroçen" sarayında Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Besesku arasında keçirilən görüşdə Azərbaycan və Rumıniya arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurlu inkişafından danışılmış, münasibətlərimizin Avropa İttifaqı çərçivəsində genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunmuşdur. Görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Besesku "Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında Birgə Bəyannamə" imzalamışlar.

2009













**2–3 oktyabr 2009-cu il tarixində Naxçıvan Muxtar Respublikasında Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü keçirilmişdir.**

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev və Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyev iştirak etmişlər. Öz çıxışında Azərbaycan Prezidenti qeyd etmişdir: "Naxçıvan, eyni zamanda, Azərbaycanın yeganə bölgəsidir ki, Türkiyə ilə həmsərhəddir. Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti onilliklər ərzində dayandırılmışdır. Ancaq biz bu gün qəbul edilmiş qərarlarla, atılmış addımlarla bu bağlantını daha da gücləndiririk". Sonra Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev və Türkiyə Prezidenti Abdullah Gül Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişini və Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün yekunu olaraq Naxçıvan bəyannaməsini imzalamışlar.

**8–9 oktyabr 2009-cu il tarixində Prezident İlham Əliyev Moldovada işgüzar səfərdə olmuşdur.**

Kişinyovda MDB Dövlət Başçıları Şurasının növbəti iclası keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak etmişdir.

2009

















# 2008

**18–19 fevral 2008-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Macarıstanda dövlət səfərində olmuşdur.**

Prezident İlham Əliyev Azərbaycanla Macarıstan arasında əlaqələrin müxtəlif sahələr üzrə genişləndiyini bildirmişdir. Prezident İlham Əliyev: "Biz indi yeni səviyyəyə qədəm qoyuruq. Bu gün imzalanacaq sənədlər bu əlaqələrin hüquqi bazasını yaradacaq. Avroatlantik strukturlara inteqrasiya istiqamətində Macarıstanla əməkdaşlığımız, eyni zamanda Azərbaycanın Avropaya inteqrasiyasının daha da genişlənməsinə xidmət edəcək". Səfər çərçivəsində Büdapeştdə Prezident İlham Əliyevə Macarıstanın Korvinus Universitetinin fəxri doktoru adının verilməsi mərasimi keçirilmişdir.

**26–27 fevral 2008-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Polşa Respublikasında rəsmi səfərdə olmuşdur.**

Səfər çərçivəsində iki ölkə prezidentləri tərəfindən Birgə Bəyannamə imzalanmışdır. İkitərəfli münasibətlərin yeni daha yüksək mərhələsinin əsasını qoymuş Birgə Bəyannamədə beynəlxalq məsələlərdə əməkdaşlıq da daxil olmaqla, Azərbaycan və Polşa arasında ümumi maraq kəsb edən sahələrdə ikitərəfli əlaqələr və onların inkişaf istiqamətləri, münaqişələrin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət və riayət əsasında, BMT Nizamnaməsinə uyğun olaraq, sülh yolu ilə həllini dəstəklədikləri qeyd edilmişdir. Bu səfər çərçivəsində Prezident İlham Əliyev Varşavada Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Xaç Ordeni ilə təltif edilmişdir.

# 2008










**10 mart 2008-ci il tarixində Bolqarıstan Prezidenti Georgi Pırvanov Azərbaycana işgüzar səfərə gəlmişdir.**

# 2008

Bu görüş üç il yarım müddət ərzində prezidentlərin üçüncü görüşü olmuşdur. İki prezident arasında iqtisadi, siyasi və mədəni əlaqələrlə bağlı məsələlər müzakirə olunmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında əlaqələrin yüksək olduğunu bildirmişdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan Azərbaycan Prezidenti bu münaqişənin həllində irəliləyişlərin olması üçün Avropanın işğalçı tərəfə Dağlıq Qarabağın heç zaman müstəqil olmayacağı və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağı ilə bağlı açıq mesaj verməli olduğunu vurğulamışdır.







**2–4 aprel 2008-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyada işgüzar səfərdə olmuşdur.**

# 2008

Səfər zamanı Buxarestdə, NATO-nun sammiti çərçivəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Türkiyə Respublikasının Prezidenti Abdullah Gül və NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer ilə görüşmüşdür.

Bu səfər çərçivəsində Azərbaycan Prezidenti Buxarestdə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir.









**23 aprel 2008-ci il tarixində Moldova Prezidenti Vladimir Voronin Azərbaycana rəsmi səfərə gəlmişdir.**

İki ölkə prezidentinin görüşündə Azərbaycan və Moldova arasında əlaqələrin bütün sahələrdə inkişaf etdiyi vurğulanmış, beynəlxalq təşkilatlarda əməkdaşlığın vəziyyəti müzakirə edilmişdir. Moldova Prezidenti onun ölkəsinin beynəlxalq tədbirlərdə Azərbaycanın haqlı mövqeyini bundan sonra da dəstəkləyəcəyini bəyan etmişdir. Bundan başqa, iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsi, investisiya layihələrinin həyata keçirilməsi məsələləri də müzakirə mövzusu olmuşdur.

**5 may 2008-ci il tarixində İordaniyanın Kralı II Abdullah Azərbaycana səfərə gəlmişdir.**

Keçirilən görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, əlaqələrin daha da genişlənməsi üçün yaxşı imkanların olduğu vurğulanmışdır. Dövlət başçıları yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etmiş və bu səfərin də ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə xidmət etdiyini bildirmişlər. Səfər çərçivəsində iqtisadi əməkdaşlığın inkişafı üçün hüquqi baza rolunu oynayan iki mühüm sənəd: "Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimiyyə Krallığı Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya" və "Azərbaycan Respublikası və İordaniya Haşimiyyə Krallığı arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş" imzalanmışdır.

Bu səfər çərçivəsində Prezident İlham Əliyev Kral II Abdullahla Bakıda 2-ci İordaniya sərgisinin açılışında iştirak etmişdir.

**2008**







**12 may 2008-ci il tarixində İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Görüş zamanı Azərbaycan–İsveçrə əməkdaşlığının hazırkı vəziyyəti və inkişaf perspektivlərinin geniş müzakirəsi olmuşdur. Prezidentlər mövcud münasibətlərin səviyyəsi ilə bağlı razılıq ifadə etmiş və əməkdaşlığın gələcək inkişafının vacibliyini vurğulamışlar. "Bu səfər ikitərəfli münasibətlərə yeni impuls verəcək" – deyə Azərbaycan Prezidenti görüşdə bildirmişdir.

**19 may 2008-ci il tarixində Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycana rəsmi səfərə gəlmişdir.**

İki dövlət başçısının görüşündə Azərbaycan–Türkmənistan münasibətlərinin inkişaf perspektivləri və bu münasibətlərin genişləndirilməsinin önəmi vurğulanmışdır. Görüşdə iki ölkənin maliyyə, xarici işlər və nəqliyyat nazirlikləri arasında əməkdaşlıq haqqında sazişlər imzalanmış, həmçinin Xəzər dənizinin hüquqi statusu ətrafında da fikir mübadiləsi aparılmışdır. Prezidentlər Xəzər dənizinin hüquqi statusunun müəyyən olunmasının prioritet olduğunu və bunun Xəzər dənizində beynəlxalq əməkdaşlığa yeni imkanlar yaradacağına əmin olduqlarını bildirmişlər.

**21–23 may 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynada rəsmi səfərdə olmuşdur.**

Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşündə iki ölkə arasında müxtəlif sahələrdə əlaqələri inkişaf etdirmək üçün kifayət qədər potensialın olduğu və bu sahələrdə layihələrin həyata keçirilməsinin zəruriliyi qeyd edilmişdir. İkitərəfli münasibətlərin hazırkı səviyyəsindən, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişlənməsindən, habelə beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıqdan məmnunluq ifadə olunmuşdur.

Səfər çərçivəsində Taras Şevçenko adına Kiyev Milli Universitetində Azərbaycan Prezidenti İlham Əliyevə bu ali təhsil ocağının fəxri doktoru adı verilməsi münasibətilə mərasim keçirilmişdir. Mərasimdə nitq söyləyən Prezident İlham Əliyev bu fəxri ada layiq görülməsini Azərbaycan–Ukrayna əlaqələrinin inkişafında gördüyü işlərə verilən qiymət kimi dəyərləndirmişdir.

**2008**

















**28–30 may 2008-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Finlandiya Respublikasında ilk dəfə rəsmi səfərdə olmuşdur.**

Helsinkidə, Finlandiya Prezidentinin sarayında Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonenlə görüşdə Azərbaycan və Finlandiya arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin perspektivləri müzakirə olunmuşdur. Prezident İlham Əliyev Azərbaycanda gedən inkişaf proseslərindən danışmış, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermiş və bildirmişdir ki, Ermənistanın bu işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində 1 milyon insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Finlandiya Prezidenti xanım Tarya Halonen ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu söyləmiş, Azərbaycana rəsmi səfərini xatırladaraq, onun uğurla keçdiyini bildirmişdir. O, Prezident İlham Əliyevin səfərinin əlaqələrimizin genişlənməsinə xidmət edəcəyinə əminliyini ifadə etmişdir.







**30 iyun 2008-ci il tarixində Ukrayna Prezidenti Viktor Yuşşenko Azərbaycana işgüzar səfərə gəlmişdir.**

Prezidentlər görüş zamanı ikitərəfli münasibətlərin inkişafı və beynəlxalq təşkilatlarda əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparmışlar. Səfər çərçivəsində, eləcə də Ukraynada Xəzər neftini emal edən müəssisənin qurulması ilə bağlı yaradılmış işçi qrupun ilk hesabatı, iki ölkə arasında yanacaq-enerji sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

Bu səfər çərçivəsində Bakıda görkəmli Ukrayna şairi Taras Şevçenkonun abidəsinin açılış mərasimi keçirilmişdir.









2008

**1 iyul 2008-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat – GUAM Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Gürcüstanın Batumi şəhərində işgüzar səfərdə olmuşdur.**

GUAM-ın növbəti sammiti "GUAM Avropanın Şərqini birləşdirir" şüarı altında keçirilmişdir. Sammitin yekunu olaraq beş ölkə prezidenti (Azərbaycan Prezidenti İlham Əliyev, Ukrayna Prezidenti Viktor Yuşenko, Gürcüstan Prezidenti Mixeil Saakaşvili, Litva Prezidenti Valdas Adamkus və Polşa Prezidenti Lex Kaçinski) "GUAM – Şərqi Avropaya inteqrasiya" Batumi bəyannaməsini imzalamışlar. Sənəddə dövlətlərin demokratik dəyərlərə sadiq olması, insan haqlarına hörmətlə yanaşması, qanunun aliliyi, mədəni və dini irsin saxlanılması və tolerantlıq ruhunun möhkəmləndirilməsi təsdiqlənir.








**3 iyul 2008-ci il tarixində Rusiya Prezidenti Dmitri Medvedev Azərbaycana ilk dəfə rəsmi səfərə gəlmişdir.**

Prezident İlham Əliyev bu səfərin iki ölkə arasında əməkdaşlığın və dostluq münasibətlərinin çox yaxşı əlaməti olduğunu, münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini bildirmişdir. Rusiya Prezidenti Dmitri Medvedev səfər zamanı aparılan danışıqların yaxşı nəticələr verəcəyinə əmin olduğunu, eləcə də imzalanmış Bəyannamə və sənədlərin hər iki xalqın mənafeyinə xidmət edəcəyini qeyd etmişdir. Görüş zamanı, həmçinin iki ölkə arasında iqtisadi-ticari, yanacaq-energetika sahəsində əlaqələr, Ermənistan–Azərbaycan münaqişəsinin həlli məsələləri müzakirə olunmuşdur.





# 2008

7 avqust 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində keçirilən XXIX Yay Olimpiya oyunlarının açılış mərasimində iştirak etmək üçün Çində işgüzar səfərdə olmuşdur.

Azərbaycan Prezidenti avqustun 9-da Pekində Çin Xalq Respublikasının sədri Hu Szintaonun adından XXIX Yay Olimpiya oyunlarının açılış mərasiminə gəlmiş ölkələrin dövlət və hökumət başçılarının şərəfinə verilən səhər yeməyində iştirak etmişdir.







10 avqust 2008-ci il tarixində Çin Xalq Respublikasının paytaxtı Pekində – "China World Hotel"də XXIX Yay Olimpiya oyunları çərçivəsində "Azərbaycan günü" keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər. Mərasimdə Azərbaycanın mədəniyyəti və incəsənətindən, tarixindən, müasir inkişafından bəhs edən videomateriallar nümayiş etdirilmişdir. Prezident İlham Əliyev, həmçinin olimpiyaçılarımızın yerləşdiyi şəhərciyi də ziyarət etmiş və idmançılarımıza uğurlar diləmişdir.



2008

**20 avqust 2008-ci ildə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycanda işgüzar səfərdə olmuşdur.**

Prezident İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşündə ölkələrimiz arasında əməkdaşlığın, ikitərəfli münasibətlərin bütün sahələrdə daim inkişaf etdiyi bildirilmiş və əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunmuşdur. Söhbət zamanı ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.





**21 avqust 2008-ci ildə Rumıniya Prezidenti Trayan Besesku Azərbaycanda səfərdə olmuşdur.**

Prezidentlərin görüşü zamanı Prezident İlham Əliyev iki ölkə arasında dostluq münasibətlərinin sürətlə inkişaf etdiyini, siyasi, iqtisadi, mədəni, enerji sahələrində ölkələrimizin yaxın tərəfdaş olduğunu və regional əməkdaşlığın uğurla həyata keçirildiyini bildirmişdir. Prezident Trayan Besesku Azərbaycanın bölgədə mühüm ölkə olduğunu və regional məsələlərdə çox güclü rol oynadığını vurğulamışdır. O, qeyd etmişdir ki, hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rola malikdir.





**10 sentyabr 2008-ci il tarixində Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Azərbaycana işgüzar səfərə gəlmişdir.**

Görüş zamanı ölkələr arasında bir sıra sahələrdə ikitərəfli əməkdaşlığa dair məsələlər müzakirə olunmuşdur.





**2008-ci il sentyabrın 11-də Özbəkistan Prezidenti İslam Kərimov Azərbaycana səfər etmişdir.**

Prezident İlham Əliyev Özbəkistanın beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizə verdiyi dəstəyi yüksək qiymətləndirmişdir. Özbəkistan Prezidenti İslam Kərimov Bakıya səfərinin ikitərəfli münasibətlərdə tətbiq oluna biləcək geniş imkanların müzakirəsi üçün mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmişdir. Sonra iki ölkə arasında ətraf mühitin mühafizəsi, informasiya-kommunikasiya texnologiyaları, dəmir yolu nəqliyyatı, vergi və informasiya mübadiləsi, humanitar əməkdaşlıq sahələrini əhatə edən sənədlər imzalanmışdır.





# 2008

**Azərbaycan Prezidenti İlham Əliyev 25–26 noyabr 2008-ci il tarixində İtaliya Baş naziri Silvio Berluskoninin dəvəti ilə İtaliyada rəsmi səfərdə olmuşdur.**

Görüş zamanı İtaliya və Azərbaycan arasında əməkdaşlığın perspektivləri müzakirə edilmiş, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin genişlənəcəyi, qarşılıqlı münasibətlərin möhkəmlənəcəyi qeyd olunmuşdur.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci ilin noyabrın 28-də Türkmənistanda rəsmi səfərdə olmuşdur.**

Türkmənistan Prezidenti Qurbanqulu Berdimühəmmədovla görüşdə iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunmuş, əlaqələrin daha da genişlənəcəyinə əminlik vurğulanmışdır. Qeyd olunmuşdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Türkmənistan Prezidenti Qurbanqulu Berdimühəmmədov ölkəsinin Azərbaycanla münasibətlərinə böyük önəm verdiyini vurğulamış, həmçinin bir çox sahələrdə əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirmişdir. Prezident Qurbanqulu Berdimühəmmədov tranzit boru kəmərlərinin təhlükəsizliyinin təmin olunması barədə Türkmənistanın beynəlxalq təşkilatlarda irəli sürdüyü təşəbbüsün Azərbaycan Prezidenti tərəfindən dəstəklənməsini yüksək qiymətləndirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan və Türkmənistan arasındakı münasibətlərin təkcə bu ölkələr üçün deyil, həm də bütün Mərkəzi Asiya, eləcə də Xəzər, Qafqaz regionu üçün böyük əhəmiyyəti olduğunu bildirmişdir.

2008














# 2007

24–26 yanvar 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev İsveçrədə işgüzar səfərdə olmuşdur.

Bu səfər çərçivəsində cənab Prezident Davos İqtisadi Forumunda dövlət başçısı kimi ilk dəfə iştirak etmişdir. 25 yanvar 2007-ci ildə "Güclərin qlobal balansının yerdəyişməsi" adı altında keçirilən Davos forumu çərçivəsində təşkil edilən "Neft geosiyasətinin artan əhəmiyyəti" mövzusundakı iclasda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın təşəbbüskarı olduğu, xüsusən də Avropanın enerji təhlükəsizliyi baxımından yüksək əhəmiyyətə malik olan qlobal enerji layihələri barədə məlumat vermişdir. Forumda Avropanın enerji təhlükəsizliyinin təminatı məsələsində Azərbaycanın rolunun günbəgün artdığı qeyd edilmiş və energetika sahəsində əldə olunan uğurları təqdir edilmişdir.




Davosa səfəri çərçivəsində Azərbaycan Prezidenti İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi-Rey ilə görüşmüşdür.

Görüşdə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli istiqamətində aparılan danışıqlar prosesi barədə fikir mübadiləsi, İsveçrə şirkətlərinin Azərbaycana sərmayə qoyması imkanları və enerji sahəsində əməkdaşlıq ətrafında müzakirələr aparılmışdır. Bu səfər çərçivəsində Azərbaycan Prezidenti Davosda Avropa İttifaqının enerji məsələləri üzrə məsul komissarı Andris Pyelbalqs ilə görüşmüşdür. Görüşdə regionun enerji təhlükəsizliyi məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır. A.Pyelbaqs: "Azərbaycanın gördüyü işlər, regionda apardığı siyasət onun regional proseslərdə liderlik etməsinə imkan yaradır və Avropa İttifaqı buna çox böyük əhəmiyyət verir".

2007





**29–31 yanvar 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Fransa Respublikasında dövlət səfərində olmuşdur.**

2007

Dövlət səfəri bu ölkədə xüsusi ehtiram göstəricisi hesab olunur. Səfər çərçivəsində Parisdə Fransa Yelisey sarayında Prezidenti Jak Şirak ilə görüşmüşdür. Görüş zamanı iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğu bəyan edilmiş, enerji layihələri, Cənubi Qafqazda vəziyyət və Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı fikir mübadiləsi aparılmışdır. Bu səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev Jak Şirak tərəfindən Fransa dövlətinin ali mükafatı olan "Fəxri Legion" ordeninin yüksək dərəcəsi ilə təltif olunmuşdur. Prezident İlham Əliyev isə Jak Şiraka "Heydər Əliyev ordeni"ni təqdim etmişdir. Həmçinin Azərbaycan və Fransa arasında mülki müdafiə, aeronavtika, elmi əməkdaşlıq, turizm, qadın və uşaqların cəmiyyətdə yeri məsələləri haqqında sənədlər imzalanmışdır.













Parisdə dövlət səfəri çərçivəsində Prezident İlham Əliyev Parisin Yelisey Xiyabanında Fransanın azadlıq rəmzi sayılan "Zəfər tağı"nın altında dəfn olunmuş Naməlum əsgərin məzarı önünə əklil qoymuşdur.

Azərbaycan Prezidenti Parisə səfəri çərçivəsində Paris şəhər meriyasında Fransa ictimaiyyətinin və diplomatik korpusunun nümayəndələri ilə görüşmüşdür.

2007









**15–16 mart 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Respublikasında rəsmi səfərdə olmuşdur.**

2007

Tacikistan Prezidenti Emoməli Rəhmonov ilə keçirilən görüş zamanı Azərbaycanla Tacikistan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndirilməsi, xüsusən də iqtisadi sahədə əməkdaşlığın inkişafının vacibliyi vurğulanmışdır. Səfər zamanı Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi, investisiyaların təşviqi və qarşılıqlı qorunması, iqtisadi-ticari, mədəniyyət və incəsənət, gömrük sahələrində əməkdaşlıq və qarşılıqlı yardım, turizm, standartlaşdırma, metrologiya, sertifikasiya və akkreditasiya, dəmir yol nəqliyyatı sahələrində əməkdaşlıq, hava əlaqəsi haqqında hökumətlərarası sənədlər imzalanmışdır.













27–28 mart 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.

2007

Səfər çərçivəsində Azərbaycan Prezidenti Moskvada, Kreml sarayında Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşmüşdür. Dövlət başçıları görüşdə iki ölkə arasında siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulamışlar.

Rusiyaya səfəri çərçivəsində Moskvada Mstislav Rostropoviçin 80 illiyi şərəfinə rəsmi qəbulda iştirak edən Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq mədəni əlaqələri və musiqi sənətinin inkişafındakı böyük xidmətlərinə görə Mstislav Rostropoviçə Azərbaycan Respublikasının ən yüksək dövlət təltifi olan "Heydər Əliyev ordeni"ni təqdim etmişdir.









30 mart 2007-ci il tarixində Polşa Prezidenti Lex Kaçinski Azərbaycana rəsmi səfərə gəlmişdir.

2007

Görüşdə iqtisadi, siyasi və digər sahələrdə ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu qeyd edilmiş, dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əməkdaşlığın inkişafına müsbət təsir göstərəcəyi vurğulanmışdır. Səfər zamanı Azərbaycan Prezidenti və Polşa Prezidenti Birgə Bəyannamə imzalamışlar.











**23–25 aprel 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Koreya Respublikasında dövlət səfərində olmuşdur.**

Seulda Prezident İlham Əliyev Koreya Prezidenti Roh Moo-hyun ilə görüşü zamanı müxtəlif ikitərəfli və çoxtərəfli məsələləri müzakirə etmişdir. Prezidentlər iki ölkə arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsinə dair Birgə Bəyannamə imzalamışlar. Bəyannamədə iki ölkə arasında viza rejiminin sadələşdirilməsi, sərmayə qoyuluşu təminatı və ikiqat vergitutmanın aradan qaldırılması barədə sazişlərin imzalanması, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünə Cənubi Koreyanın dəstəyi məsələləri öz əksini tapmışdır.

2007











**2 may 2007-ci il tarixində Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezidentlərin görüşündə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Görüşdən sonra hər iki ölkənin hökumət nümayəndələrinin iştirakı ilə geniş tərkibdə iclas keçirilmişdir. Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko Birgə Bəyannamə imzalamışdır.









**12 may 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstana səfər etmişdir.**

12 may 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin iştirakı ilə Tiflisin tarixi məhəllələrindən biri olan Abanostubanidəki Heydər Əliyev parkında ulu öndərin büstünün təntənəli açılış mərasimi olmuşdur.





**2007**

**19 iyun 2007-ci il tarixində Bakıda "Gülüstan" sarayında GUAM-ın II zirvə görüşü keçirilmişdir.**

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev, Ukrayna Prezidenti Viktor Yuşşenko, Gürcüstan Prezidenti Mixeil Saakaşvili və Moldovanın Baş naziri Vasile Tarlev iştirak etmişlər. "GUAM-ın Bakıda keçirilən zirvə görüşü onun getdikcə artan beynəlxalq nüfuzunun təsdiqidir" – deyə Prezident İlham Əliyev öz çıxışında qeyd etmişdir. GUAM-ın II zirvə görüşü çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığa dair bir neçə sənəd imzalanmışdır.

**29–30 iyul 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev İordaniya Haşimilər Krallığında rəsmi səfərdə olmuşdur.**

Səfər çərçivəsində iki ölkə arasında siyasi, iqtisadi-ticari, sosial, nəqliyyat, KİV, mədəni, humanitar və digər sahələri əhatə edən 15 sənəd imzalanmışdır. Həmçinin Əmman şəhərinin mərkəzi küçələrindən birinə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adının verilməsi mərasimi keçirilmişdir.

Bu səfər çərçivəsində Prezident İlham Əliyevə Əmmanda İordaniya Universitetinin Siyasi elmlər üzrə Fəxri doktoru adının verilməsi mərasimi keçirilmişdir.

2007













**7–8 avqust 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasında rəsmi səfərdə olmuşdur.**

Səfər zamanı Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə, Qazaxıstanın Baş naziri və digər dövlət rəsmiləri ilə görüşlər keçirmişdir. Səfər dövründə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Birgə Bəyanatı, Azərbaycanla Qazaxıstan arasında ticarət və televiziya sahəsində əməkdaşlığa dair sənədlər imzalanmışdır.





**13 avqust 2007-ci il tarixində Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezident İlham Əliyev və Prezident Emoməli Rəhmon arasında keçirilən görüşdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulanmış, qarşılıqlı rəsmi səfərlərin mühüm əhəmiyyət daşıdığı diqqətə çatdırılmışdır. Prezident İlham Əliyev və Prezident Emoməli Rəhmon Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında Birgə Bəyannaməni imzalamışlar. Səfər çərçivəsində iki ölkə arasında statistika, ədliyyə, elm, texnika və texnologiya, rabitə və informasiya, təhsil, ikiqat vergitutmanın aradan qaldırılması, gəlir və kapitala görə vergilərin ödənilməsindən yayınma hallarının qarşısının alınması və azad ticarət sahələrində sənədlər imzalanmışdır.







2007

21 avqust 2007-ci il tarixində İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad Azərbaycana ilk dəfə rəsmi səfərə gəlmişdir.

Səfər çərçivəsində Azərbaycanla İran arasında müxtəlif sahələrdə əməkdaşlığa dair bir sıra sənədlər imzalanmışdır. Prezidentlər tərəfindən imzalanmış Birgə Bəyannamədə bölgə üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar İranın Azərbaycanın haqq işini dəstəkləməsi və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq və normalara uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi əsasında həll olunmasının zəruriliyi vurğulanmışdır.







28 avqust 2007-ci il tarixində Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə Al Tani Azərbaycana rəsmi səfərə gəlmişdir.

Dövlət başçıları iki ölkə arasında siyasi münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulamış və beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiklərini qeyd etmişlər.





2007

**13–14 sentyabr 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Litvada rəsmi səfərdə olmuşdur.**

Prezidentlərin görüşü zamanı Azərbaycanla Litva arasında Avropa və Şimali Atlantika strukturlarına inteqrasiya sahəsində əlverişli əməkdaşlıq yarandığı, iqtisadi layihələrin reallaşdırılmasında qarşılıqlı marağın olduğu qeyd edilmişdir. Səfər çərçivəsində Vilnüsdə Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun iştirakı ilə Azərbaycanın 50-dək və Litvanın 100-ə yaxın şirkətinin nümayəndələrinin qatıldığı Azərbaycan–Litva Biznes Forumu keçirilmişdir.

**24–25 sentyabr 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyada işgüzar səfərdə olmuşdur.**

24 sentyabr tarixində Azərbaycan və Rumıniya prezidentləri Buxarestdə Heydər Əliyev adına parkın və Heydər Əliyev Fondunun nümayəndəliyinin açılışında iştirak etmişdir. Prezidentlər Azərbaycan–Rumıniya əməkdaşlığının uğurlu inkişafı, qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələrin genişləndirilməsi məsələlərini müzakirə etmişdir. Hər iki ölkənin beynəlxalq təşkilatlarda, o cümlədən Avroatlantik strukturlarında bir-birinin mövqelərini qarşılıqlı dəstəkləməsi qeyd olunmuşdur. Dövlət başçıları Buxarestdə Heydər Əliyev Fondunun nümayəndəliyinin və Azərbaycanın ümummilli liderinin adını daşıyan parkın açılmasının iki ölkənin xalqları arasında əlaqələrin möhkəmlənməsinə xidmət edəcəyini vurğulamışlar.

**2 oktyabr 2007-ci il tarixində Azərbaycan Prezidenti Azərbaycana rəsmi səfərə gəlmiş Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiç ilə görüşmüşdür.**

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, əməkdaşlığın gələcək perspektivləri müzakirə olunmuşdur. Görüşdən sonra iki ölkə arasında əməkdaşlığa dair üç sənəd imzalanmışdır. Prezident İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiç Azərbaycan–Xorvatiya Biznes Forumunda iştirak etmişlər.

**5 oktyabr 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən iclasında iştirak etmək məqsədilə Tacikistanda işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Prezident İlham Əliyevin Düşənbədə hökumət iqamətgahında Tacikistan Prezidenti Emoməli Rəhmon ilə görüşü olmuşdur.

2007








**10–11 oktyabr 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Vilnüsdə işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Vilnüsdə energetika sahəsində təhlükəsizliyə dair konfransda çıxış etmişdir. Prezident İlham Əliyev nitqində qeyd etmişdir ki, Avropaya neft və qaz satışının yeganə yeni alternativ mənbəyi Xəzər regionudur və Avropanın enerji ehtiyatlarına olan ehtiyacını təmin etmək üçün bu tələbatı hərtərəfli öyrənmək lazımdır. Prezident İlham Əliyev: "Biz enerji siyasətimizi və layihələrin həyata keçirilməsini başlayanda, həmin vaxt Avropa İttifaqının bazarı bizim üçün uzaq olan məsələ idi. Biz diqqəti əsasən qonşu bazarlara, qonşu ölkələrə yönəldirdik. Lakin, əsas enerji layihəmiz reallığa çevrildiyi bir vaxtda gördük ki, Avropaya, Avropa İttifaqına alternativ təchizat lazımdır. Hasilatçı ölkə kimi biz artıq həmin məqsədə nail olmuşuq".

**16 oktyabr 2007-ci il tarixində Prezident İlham Əliyev Tehran şəhərində Xəzəryanı ölkələrin dövlət başçılarının ikinci zirvə toplantısında iştirak etmişdir.**

Prezident İlham Əliyev: "Qeyd etmək lazımdır ki, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsi yalnız region dövlətlərinin inkişafı və çiçəklənməsi, dövlətlərarası münasibətlərin möhkəmlənməsi baxımından deyil, eyni zamanda onun biomüxtəlifliyinin, flora və fauna zənginliyinin qorunub saxlanması, ekoloji durumunun yaxşılaşdırılması baxımından da çox vacibdir".

**6 noyabr 2007-ci il tarixində Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Bu səfər Abdullah Gülün prezident seçildikdən sonra ilk xarici səfəri olmuşdur. Prezidentlər görüş zamanı Türkiyə və Azərbaycan arasında mövcud olan dostluq, qardaşlıq əlaqələrinin ən yüksək səviyyəsindən məmnun olduqlarını bəyan etmiş, bölgədə gedən proseslərə vahid mövqedən yanaşılmasının vacibliyini vurğulamış və "Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalamışlar.

2007














**19–20 noyabr 2007-ci il tarixində Azərbaycan Prezidenti Fransa Respublikasında rəsmi səfərdə olmuşdur.**

2007

Fransa Prezidenti Nikola Sarkozi ilə görüşü zamanı əsas müzakirə mövzusu Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi olmuşdur. Görüşdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və etnik təmizləmə siyasəti, bu siyasətin nəticəsində 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü vurğulanmış, münaqişənin yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasının zəruriliyi qeyd edilmişdir.





# 2006

**21 fevral 2006-cı il tarixində Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Rusiya İlinin açılışı mərasimində iştirak etmək məqsədilə Azərbaycana səfərə gəlmişdir.**

**7–10 mart 2006-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti Yaponiyada rəsmi səfərdə olmuşdur.**

# 2006

Dövlət başçıları Rusiyada Azərbaycan İlinin uğurla keçdiyini, çoxlu tədbirlər və hadisələrlə əlamətdar olduğunu vurğulamışlar və Azərbaycanda Rusiya İlinin də eyni müvəffəqiyyətlə başa çatacağına əminliklərini ifadə etmişlər. Bildirilmişdir ki, belə tədbirlərin keçirilməsi siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin inkişafına təkan verəcək, ölkələrimizi, xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Prezident İlham Əliyev ölkələrimiz arasında dostluq, mehriban qonşuluq, səmərəli əməkdaşlıq münasibətlərinin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini bildirmişdir.

Səfər çərçivəsində Azərbaycan Prezidenti Yaponiyanın İmperatoru Akihito ilə görüşmüşdür. Yaponiya İmperatoru Əlahəzrət Akihito ölkələrimiz arasındakı əlaqələrin daha da inkişaf etdirilməsinin faydalı olduğunu bildirmişdir. Xalqlarımız arasındakı tarixi dostluq əlaqələrindən söhbət açan İmperator, Azərbaycan ilə münasibətlərin möhkəmləndirilməsinə Yaponiya dövlətinin xüsusi maraq göstərdiyini vurğulamışdır. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci ilin fevralında Yaponiyaya səfərini məmnunluqla yada salmış və onun görüşü ilə bağlı xoş xatirələrini danışmışdır. Əlahəzrət Akihito demişdir ki, məhz Heydər Əliyevin səyləri və qətiyyəti sayəsində uğurlu islahatlar aparan Azərbaycan dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilmək yolunda inamla irəliləmişdir və bu gün həmin siyasətin Azərbaycanda davam etdirilməsi öz bəhrəsini verir.

Bu səfər çərçivəsində Prezident İlham Əliyev Tokioda Yaponiyanın Baş naziri Dzünitiro Koidzumi ilə görüşmüşdür. Yaponiyanın Baş naziri coğrafi-siyasi cəhətdən çox mühüm bölgədə yerləşən Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verdiklərini qeyd etmişdir. Azərbaycanda aparılan uğurlu iqtisadi islahatların və onların nəticələrinin Yaponiya hökuməti və ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini və maraqla qarşılandığını söyləyən Baş nazir ölkəmizin iqtisadi inkişafından məmnunluğunu bildirmişdir. Prezident İlham Əliyev Azərbaycanın dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan Yaponiya ilə bütün sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsində maraqlı olduğunu söyləmişdir. Prezident İlham Əliyev Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyət, islahatların həyata keçirilməsi nəticəsində əldə olunmuş uğurlar barədə danışmışdır. Eyni zamanda, ölkəmizin ən əsas problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması istiqamətində görülən işlərdən ətraflı söhbət açmışdır. Baş nazir Koidzumi bir daha vurğulamışdır ki, Yaponiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına ümid edir. Baş nazir Koidzumi: "Yaponiya Azərbaycanı özünə dost ölkə, layiqli tərəfdaş hesab edir və onunla bütün sahələrdə əməkdaşlığın inkişafına böyük maraq göstərir". Səfər çərçivəsində Azərbaycan Prezidenti və Yaponiyanın Baş naziri "Azərbaycan Respublikası və Yaponiya arasında dostluq və əməkdaşlığın gələcək inkişafı haqqında birgə Bəyannamə" imzalamışdır.





**4 aprel 2006-cı il tarixində Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Azərbaycanın Prezidenti Türkiyənin dövlət başçısının səfərinin dost və qardaş ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin daha da möhkəmlənməsinə yeni təkan verəcəyini vurğulamışdır. Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Türkiyənin tutduğu mövqeyə və Azərbaycana verdiyi dəstəyə görə təşəkkürünü bildirmişdir. Türkiyə Prezidenti Əhməd Necdət Sezər Azərbaycanla bütün sahələrdə ikitərəfli əlaqələrin inkişafından məmnunluğunu söyləmiş, beynəlxalq təşkilatlarda mövcud əməkdaşlığın gələcəkdə də davam edəcəyini və Azərbaycanın ədalətli mövqeyini bundan sonra da dəstəkləyəcəklərini xüsusi vurğulamışdır.

**25–28 aprel 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-da rəsmi səfərdə olmuşdur.**

Azərbaycan Prezidenti Vaşinqtonda ABŞ Prezidenti Corc Buş ilə görüşmüşdür. Görüş zamanı ikitərəfli münasibətlər, Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsi vəziyyəti, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, beynəlxalq terrorizmə qarşı birgə mübarizə, eləcə də, regionda və beynəlxalq aləmdə baş verən proseslər haqqında geniş fikir mübadiləsi aparılmışdır. ABŞ Prezidenti Corc Buş görüş zamanı bildirmişdir: "Mən Azərbaycan hökumətinə İraqda yeni demokratiyanın dəstəklənməsi üçün qoşun göndərdiyinə görə çox minnətdaram. Biz enerji məsələləri haqqında danışıqlar apardıq. Mən bu dünyada istədiyimiz məqsədə – enerji təhlükəsizliyinə nail olmaqda Prezidentin və onun hökumətinin mövqeyinə görə minnətdaram. Azərbaycanın oynayacağı rol olduqca vacibdir. Biz daxili siyasətə, qonşu ölkələrə və həmçinin Ermənistanla olan münasibətlərə aid məsələləri müzakirə etdik". Azərbaycan Prezidenti İlham Əliyev görüş zamanı bildirmişdir: "Biz ikitərəfli münasibətlərin bütün aspektlərini əhatə etdik. Biz regionda enerji təhlükəsizliyi məsələlərinin təşviq olunmasında, Xəzər dənizində neft və qaz yataqlarının işlənilməsində və enerji daşıyıcılarının beynəlxalq bazarlara çatdırılmasına imkan verən möhkəm nəqletmə infrastrukturunun yaradılmasında Amerika Birləşmiş Ştatlarına göstərdiyi köməyə görə minnətdarıq. Biz terrorçuluğa qarşı mübarizədə müttəfiq ölkələrik. Biz ilk günlərdən Birləşmiş Ştatlarla birgə dünyanın müxtəlif yerlərində çiyin-çiyinə olmuşuq və regionda sülhün və sabitliyin bərqərar olunmasına töhfəmizi davam etdirəcəyik. Əlbəttə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli də müzakirələrimizin əsas mövzusunu təşkil etmişdir. Mən cənab Prezidentə danışıqların son vəziyyəti haqqında məlumat verdim və ümidvar olduğumu bildirdim ki, münaqişənin dinc yolla həlli baş tutacaq və bu, bütün regionda sülhün və sabitliyin bərqərar olmasına xidmət edəcəkdir".







ABŞ-a səfər çərçivəsində Azərbaycan Prezidenti Vaşinqtonda ABŞ-ın müdafiə naziri Donald Ramsfeld ilə görüşmüşdür. ABŞ-ın müdafiə naziri müxtəlif dövrlərdə Azərbaycana etdiyi səfərləri xatırlatmış, ölkələrimiz arasında əlaqələrin inkişafından, o cümlədən hərbi sahədə əməkdaşlıqdan məmnunluğunu bildirmiş, Azərbaycanın antiterror koalisiyasında fəaliyyətini yüksək dəyərləndirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişaf etdiyini və genişləndiyini söyləmişdir. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti, regional əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Bu səfər çərçivəsində Azərbaycan Prezidentinin Vaşinqtonda Beynəlxalq Münasibətlər Şurasında görüşü olmuşdur. Görüşdə ABŞ-ın sabiq Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi general Brent Skoukroft iştirak etmişdir.

**5 may 2006-cı il tarixində Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu zirvə toplantısı keçirilmişdir.**

Prezident İlham Əliyev zirvə görüşündə bildirmişdir: "Biz hesab edirik ki, regional əməkdaşlıq layihələri hər məqsədə xidmət etməlidir. Həm iqtisadi əlaqələrin möhkəmlənməsinə, iqtisadi potensialın artmasına, eyni zamanda, bölgədə sülhün, əmin-amanlığın bərqərar olunmasına müsbət təsir göstərəcəkdir".

# 2006










**11 may 2006-cı il tarixində Koreya Respublikasının Prezidenti Ro Mu Hyun Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezidentlərin görüşü zamanı iki ölkə arasında siyasi, iqtisadi, mədəni, texnologiya və digər sahələrdə əlaqələrin genişlənməsinə və möhkəmlənməsi barədə razılıq əldə olunmuş, ikitərəfli münasibətlər, regional və beynəlxalq layihələr, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Koreya Respublikasının tutduğu mövqeyi yüksək qiymətləndirmişdir. Prezident Ro Mu Hyun Qafqaza ilk dəfə gəldiyini, Azərbaycanda gedən inkişafdan məmnunluğunu bildirmiş, Azərbaycanla bütün sahələrdə, o cümlədən energetika sahəsində əməkdaşlıq üçün perspektivlərin real olduğunu, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərlərinə böyük maraq göstərdiklərini söyləmişdir. Səfər çərçivəsində Azərbaycan–Koreya sənədlərinin imzalanması mərasimi təşkil olunmuşdur.

**22–23 may 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Ukraynada işgüzar səfərdə olmuşdur.**

Kiyevdə keçirilən GUAM ölkələri dövlət başçılarının zirvə görüşündəki nitqində Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir: "Təşkilat yeni formalar kəsb edir, inkişafdadır. Təşkilatın idarə olunması mexanizminin daha da təkmilləşdirilməsi baxımından Kiyev sammiti böyük əhəmiyyətə malikdir. Ona görə də səmərəli iş görüləcəyinə və sammitin əlaqələrimizin bundan sonra da inkişafına daha böyük təkan verəcəyinə ümid bəsləyirik. Əlaqələrimiz çoxşaxəlidir, bütün sahələri – siyasi, iqtisadi, enerji təhlükəsizliyi və nəqliyyat kommunikasiyaları sahələrini əhatə edir, yəni əməkdaşlıq üçün çox geniş meydan var".

Bu səfər çərçivəsində Azərbaycan Prezidenti ümummilli lider Heydər Əliyevin Kiyevdə ucaldılmış abidəsini ziyarət etmişdir.

# 2006













**28–31 may 2006-cı il tarixində Azərbaycan Prezidenti Fransada işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Parisdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Müəssisələri Hərəkatının (MEDEF) üzvü olan nüfuzlu şirkətləri təmsil edən iş adamları ilə görüşmüşdür. Görüşü açan "Panhart jeneral depans" şirkətinin Baş direktoru Kristian Mons Azərbaycan haqqında ümumi məlumat vermiş, ölkəmizin iqtisadiyyatının sürətlə inkişaf etdiyini xüsusi vurğulamışdır. O bildirmişdir ki, Fransa şirkətləri Azərbaycanda geniş fəaliyyət göstərir, ölkədə biznes mühiti getdikcə daha da yaxşılaşır. Azərbaycan Prezidenti İlham Əliyev görüşdə Azərbaycanın müasir iqtisadi vəziyyəti, qeyri-neft sektorunun inkişafı, həyata keçirilən iqtisadi islahatlar, beynəlxalq və regional layihələrdə ölkəmizin iştirakı, ölkədəki əlverişli sərmayə mühiti barədə ətraflı məlumat vermişdir.

Bu səfər çərçivəsində Prezident İlham Əliyev Parisdə NATO Parlament Assambleyasının yaz sessiyasında iştirak etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev sessiyada çıxışında bildirmişdir: "Regionda böyük potensial var. Biz artıq dostlarımızla çox yüksək səviyyəli regional əməkdaşlığa nail olmuşuq. Regionda çoxmilyardlıq enerji layihələrində iştirak edirik. Regionun üç ölkəsi – Azərbaycan, Gürcüstan və Türkiyə sübut etdilər ki, çox mürəkkəb siyasi və iqtisadi mühitdə, texniki çətinliklərə baxmayaraq, onlar regionumuzda dünyanın ən iri enerji layihəsini həyata keçirməyə qadirdirlər. Beləliklə, biz həmin istiqamətdə irəliləyirik. Biz Azərbaycanı bütün hüquq və azadlıqları qoruyan, yüksək səviyyəli siyasi təsisatlara, demokratikləşmə prosesinə, şəffaflığa və iqtisadi imkanlara malik, qonşularla və beynəlxalq təşkilatlarla yaxşı münasibətləri saxlayan müasir, dünyəvi ölkə kimi görürük".

**4–5 iyun 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Dialoq və Tərəfdaşlıq naminə Qara dəniz Forumunda iştirak etmək üçün Rumıniyada işgüzar səfərdə olmuşdur.**

Azərbaycan Prezidenti Rumıniya Prezidenti Trayan Besesku ilə görüşdə müxtəlif sahələrdə ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi bildirilmişdir. Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunulmuşdur. Prezident İlham Əliyev bildirmişdir ki, bu məsələdə Azərbaycanın mövqeyi dəyişməzdir və biz münaqişənin yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdarıq.

Bu səfər çərçivəsində Azərbaycan Prezidenti Buxarestin mərkəzindəki "Tei" parkında ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir.

Buxarestdə səfəri çərçivəsində Prezident İlham Əliyev "Dialoq və tərəfdaşlıq naminə" Qara Dəniz Forumunda iştirak etmişdir. Forumun məqsədi Qara dəniz regionunda sülhün və təhlükəsizliyin təmin olunmasına töhfə verməkdir. Bu məqsədlə foruma altı ölkənin dövlət başçısı, eləcə də Avropa Birliyinin, Avropa Şurasının, NATO-nun və digər beynəlxalq təşkilatların rəhbərləri və 10-dan çox ölkənin nümayəndələri dəvət olunmuşlar. Azərbaycan Prezidenti İlham Əliyev forumdakı çıxışı zamanı ölkəmizin iqtisadi inkişafından, beynəlxalq strateji layihələrdə iştirakından, Avropa strukturlarına inteqrasiya sahəsində görülən işlərdən, BTC və BTƏ neft və qaz kəmərləri layihələrindən danışmış, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nəticələri barədə ətraflı məlumat vermişdir.

**2006**
















**8 iyun 2006-cı il tarixində Litva Respublikasının Prezidenti Valdas Adamkus Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezident İlham Əliyev və Prezident Valdas Adamkus arasında keçirilən görüşdə prezidentlər Azərbaycanın və Litvanın Avratlantik strukturlarına inteqrasiyasının genişləndiyini və bu baxımdan səmərəli əməkdaşlıq aparıldığını qeyd etmişlər. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılmış və Birgə Bəyannamə imzalanmışdır.

**16–17 iyun 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Almatıda keçirilən "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"nin (AQFETM) II sammitində iştirak etmək üçün Qazaxıstanda işgüzar səfərdə olmuşdur.**

Prezident İlham Əliyev tədbirdə çıxışı zamanı bildirmişdir: "Hər bir dövlətin inkişafı ancaq sabitlik şəraitində mümkündür. Dövlətlərimizin müsbət nümunəsi göstərir ki, sabitlik olan yerdə, ictimai konsensus olan yerdə inkişaf da var. Ölkələrimizin iqtisadiyyatlarının sürətlə inkişafı buna əyani sübutdur. Lakin regionumuzda böyük təhlükə də var. Bu gün artıq bu barədə danışıldı. Bu, ilk növbədə, beynəlxalq terrorizmdir. O, əslində, bütün planlarımızı alt-üst edə və sonu bəlli olmayan nəticələrə gətirib çıxara bilər. Təcrübə göstərmişdir ki, bu bəla ilə təklikdə mübarizə aparmaq mümkün deyildir. Bu məsələdə bütün dövlətlərin səylərini sıx birləşdirmək lazımdır, vahid yanaşma lazımdır, ikili standartlardan qurtarmaq lazımdır. Terrorizmin milliyyəti yoxdur, dini yoxdur, ona görə də bu məsələyə vahid mövqedən yanaşmaq üçün çox ciddi səylər gərəkdir. Pis terror təşkilatları, bitərəf terror təşkilatları ola bilməz, onların hamısına eyni mövqedən yanaşılmalıdır. Terrorizmdən ziyan çəkən ölkə kimi Azərbaycan terrorizmlə mübarizə ilə bağlı bir çox tədbirlərdə iştirak edir. Biz bu istiqamətdə gələcəkdə də işləyəcəyik. Erməni terror təşkilatları ölkəmizdə 32 terror aktı törətmiş və bunun nəticəsində iki min günahsız vətəndaşımız həlak olmuşdur. Terrorizmin xalqımıza vurduğu ağrı-acılar yaxşı məlumdur. Ona görə də bir daha demək istəyirəm ki, yalnız birgə səylər, vahid yanaşma bu bəlanı aradan qaldırmağa imkan verə bilər".

2006










**13 iyul 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri"nin açılış mərasimində iştirak etmək məqsədilə Türkiyədə rəsmi səfərdə olmuşdur.**

# 2006

XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşması 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə başlamışdır. Bu layihə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış Azərbaycanın yeni neft strategiyasının təzahürüdür. Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq, Gürcüstandan keçməklə Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan 1768 kilometrlik boru xətti ilə Azərbaycan neftini dünya bazarına çıxarmaq imkanı yaratmışdır. Azərbaycan Prezidenti Türkiyənin Ceyhan şəhərində Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimində bildirmişdir: "Biz neft tarixini yaxşı bilirik. Müxtəlif ölkələrin təcrübəsini də öyrənmişik. Əfsuslar olsun ki, bəzi hallarda neft ölkəyə, xalqlara rifah deyil, çətinliklər gətirir, sosial ədalətsizlik, problemlər, gərginlik gətirir. Biz isə istəyirik ki, neft Azərbaycana sülh, inkişaf gətirsin, əməkdaşlıq gətirsin, xalqımızın rifah halı yaxşılaşsın... Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha da inamla inteqrasiya edəcəkdir".





**23 avqust 2006-cı il tarixində İordaniya Kralı Əlahəzrət II Abdulla Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Dövlət başçıları arasında keçirilmiş görüşdə ikitərəfli əlaqələr, müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilmiş, Azərbaycan və İordaniya arasında qarşılıqlı siyasi münasibətlərin yüksək səviyyədə olması, siyasi dialoqun fəal surətdə həyata keçirilməsi müsbət hal kimi dəyərləndirilmişdir. Prezident İlham Əliyev və Kral II Abdulla ikitərəfli əlaqələrin digər sahələrini də inkişaf etdirməyin zəruriliyini vurğulamış, ticarət-iqtisadi əlaqələrin səviyyəsinin qaldırılmasının, gələcəkdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirmişlər.

**27–29 avqust 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Sloveniyada rəsmi səfərdə olmuşdur.**

Sloveniya Prezidenti Yanez Drnovşek ilə görüşdə Azərbaycan ilə Sloveniya arasında ikitərəfli əlaqələrin inkişafı və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparılmış, eləcə də ölkələrimiz arasında ikitərəfli iqtisadi əlaqələrin hazırkı vəziyyəti və perspektivləri müzakirə edilmişdir.

Bu səfər çərçivəsində Azərbaycan Prezidenti Sloveniyanın Bled şəhərində "Caspian Outlook – 2008" Bled Strateji Forumunda çıxış etmişdir. Prezident İlham Əliyev çıxışı zamanı bildirmişdir: "Müstəqil ölkə kimi, Azərbaycan beynəlxalq və regional məsələlərdə get-gedə daha fəal rol oynamağa başlayır. Bəzi hallarda ölkəmiz enerji, nəqliyyat kimi sahələrdə böyük regional inkişaf proqramlarının təşəbbüskarıdır. Azərbaycanın əlverişli coğrafi mövqeyini nəzərə alsaq, görərik ki, bütün mühüm nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Hazırda biz nəqliyyat infrastrukturumuzun müasirləşdirilməsi üçün bir çox böyük sərmayə proqramlarını həyata keçirməkdəyik. Bir tərəfdən, Böyük İpək yolunun bərpası, Şərq-Qərb nəqliyyat dəhlizi, TRASEKA proqramı, digər tərəfdən, Şimal-Cənub nəqliyyat dəhlizi Azərbaycanı Avropadan Asiyaya və geriyə yük daşımaları sahəsində mühüm bir ölkəyə çevirir".

# 2006













**3–4 sentyabr 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun Daimi qərargahının açılış mərasimində iştirak etmək üçün Türkiyə Respublikasında işgüzar səfərdə olmuşdur.**

Forumun fəaliyyətinin əsas istiqamətləri sırasında İKT ölkələrinin üzləşdiyi işğal, təcavüzlər haqqında həqiqətlərin dünyada geniş yayılması mühüm yer tutur. Bu ilin iyun ayında Forum İKT ölkələrində yaymaq məqsədi ilə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti haqqında ilk dəfə olaraq, ərəb dilində "Qarabağ: faktlar və nəticələr" adlı kitabı çap etdirmiş və İKT xarici işlər nazirlərinin Bakı konfransı zamanı onun beynəlxalq təqdimatını keçirmişdir. Prezident İlham Əliyev tədbirdə çıxışı zamanı bildirmişdir: "Qısa müddət ərzində bütün təşkilati məsələlər öz həllini tapmış və artıq Gənclər Forumu çox fəal işlərə başlamışdır. Bu gün Forumun fəaliyyəti və gələcək planları haqqında burada kifayət qədər söhbət açıldı. Çox gözəl proqramlar var, planlar var. Mən şübhə etmirəm ki, bütün planlar həyata keçiriləcəkdir. Bununla bərabər, qeyd etmək istəyirəm ki, müsəlman gənclərinin birgə fəaliyyəti bizim gələcəyimiz üçün də çox önəmli əhəmiyyət daşıyan məsələdir".

**22–23 sentyabr 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Berlində Beynəlxalq Bertelsmann- 2006 forumunda iştirak etmək üçün Almaniyada işgüzar səfərdə olmuşdur.**

Forum hər iki ildən bir Karl Bertelsmann Fondu tərəfindən təşkil edilir. Forumun məqsədi Avropanın ali siyasi, iqtisadi, mədəni və mətbuat dairələri arasında qitənin gələcəyinə dair dialoqun keçirilməsidir. Forumda 20-dək ölkənin dövlət və hökumət başçıları, parlament sədrləri və xarici işlər nazirləri iştirak etmişdir.

# 2006

















**3–5 oktyabr 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Latviya Respublikasında dövlət səfərində olmuşdur.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Vayra Vike-Freyberqanın görüşü zamanı beynəlxalq təşkilatlar çərçivəsində faydalı əməkdaşlıq, Avratlantik strukturlara inteqrasiya sahəsində qarşılıqlı fəaliyyət məsələləri müzakirə edilmiş, iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğu bildirilmişdir. Səfər çərçivəsində Latviya–Azərbaycan sənədlərinin imzalanması mərasimi təşkil olunmuşdur.





**11 oktyabr 2006-cı il tarixində Rumıniya Prezidenti Trayan Besesku Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezidentlərin görüşü zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunmuşdur. Səfər çərçivəsində Azərbaycan–Rumıniya sənədlərinin imzalanması mərasimi təşkil olunmuşdur.



Rumıniya Prezidentinin Azərbaycana səfəri çərçivəsində Bakıda məşhur rumın bəstəkarı və musiqiçisi Corce Eneskunun abidəsinin açılışı olmuşdur.






2006

**17–18 oktyabr 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Belarus Respublikasında rəsmi səfərdə olmuşdur.**

Dövlət başçılarının görüşü zamanı Prezident Aleksandr Lukaşenko xalqımızın ümummilli lideri Heydər Əliyevin iki ölkə arasında əlaqələrin inkişafındakı xidmətlərini xatırladaraq, bu münasibətlərin indiyədək qorunub saxlandığını vurğulamış və demişdir ki, rəsmi Minsk Azərbaycanla istənilən sahədə əməkdaşlıq etməyə hazırdır. Prezident İlham Əliyev iki ölkə arasında iqtisadi əməkdaşlığın daha da gücləndirilməsi üçün mövcud imkanlardan səmərəli istifadə edilməsinin əhəmiyyətli olduğunu bildirmişdir.

**6–8 noyabr 2006-cı il tarixində Azərbaycan Prezidenti Belçika Krallığında işgüzar səfərdə olmuşdur.**

Azərbaycan Prezidentinin Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşü zamanı J.M.Barrozu Azərbaycan ilə əməkdaşlığın səviyyəsinin yaxşı olduğunu bildirərək demişdir ki, əlaqələrin daha da genişləndirilməsi üçün potensial böyükdür. O, Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında imzalanacaq enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun əhəmiyyətini vurğulamış, Azərbaycanın Avropaya inteqrasiyasının Avropa Birliyi üçün də vacibliyini bildirmişdir. Avropa Birliyi ilə əməkdaşlığı yüksək qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə gedən iqtisadi inkişaf proseslərindən, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması və demokratik islahatlar barədə ətraflı söhbət açmış və bildirmişdir ki, bütün sahələrdə Avropa dəyərlərinə qovuşmağın bizim üçün böyük əhəmiyyəti var. Prezident İlham Əliyev Azərbaycanın Avropa Birliyinə töhfəsindən də danışaraq, ölkəmizin əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və geniş nəqliyyat infrastrukturu olduğunu vurğulamış və demişdir ki, bu baxımdan Azərbaycan da Avropa üçün böyük əhəmiyyət daşıyır.

Bu səfər çərçivəsində Prezident İlham Əliyev Brüsseldə Avropa Birliyi Şurasının Baş katibi, xarici siyasət və təhlükəsizlik siyasəti üzrə Ali nümayəndəsi Xavyer Solana ilə görüşmüşdür. Avropa Birliyinin Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyini bildirən Xavyer Solana bunun müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişafına təkan verəcəyini vurğulamışdır. O, yeni qonşuluq siyasətindən danışaraq, bunu Azərbaycan–Avropa Birliyi əməkdaşlığının yeni mərhələsi adlandırmışdır. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və regional məsələlərə də toxunulmuşdur.

2006











**20–21noyabr 2006-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərində rəsmi səfərdə olmuşdur.**

# 2006

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zaid Al Nəhyan ilə görüşdə iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə də əməkdaşlığın mövcud potensialından tam istifadə edilməsi barədə razılıq əldə edilmiş, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələlərinə toxunulmuşdur. Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı təcavüzünün ağır nəticələri barədə məlumat vermiş, bu münaqişənin həlli ilə bağlı hazırda aparılan danışıqlar prosesindən söhbət açmışdır.







# 2005

**24–26 yanvar 2005-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.**

**24–26 fevral 2005-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Respublikasında rəsmi səfərdə olmuşdur.**

# 2005

Prezidentlərin görüşü zamanı İranın qonşu, dost ölkə olan Azərbaycanla bütün sahələrdə əlaqələri genişləndirməyə maraqlı olduğunu söyləyən cənab Xatəmi görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin siyasi təcrübəsindən istifadə etməklə ikitərəfli münasibətlərin, əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsinin faydalı olduğunu vurğulamışdır. Prezidentlər Azərbaycanla İran arasında qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsi və genişləndirilməsi üçün siyasi-iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi barədə razılıq əldə etdilər.

Bu səfər çərçivəsində Azərbaycan Prezidenti Tehranda İmam Xomeyninin məqbərəsini ziyarət etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev imam Xomeyninin məqbərəsinə əklil qoymuş, fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır:"İran İslam inqilabının rəhbəri imam Xomeyninin qəbrini ziyarət etdim. Öz xalqı və ölkəsi üçün böyük xidmət göstərmiş rəhbərin əziz xatirəsi həmişə böyük hörmətlə yad ediləcəkdir. Allah rəhmət eləsin. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti. 25 yanvar 2005-ci il".

Dövlət başçılarının görüşü zamanı İtaliya Prezidenti Adzelyo Çampi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1997-ci ildə İtaliyaya rəsmi səfərini xatırladaraq, həmin səfərdən sonra ölkələrimiz arasında münasibətlərin yeni mərhələsinin başlandığını söyləmişdir. İtaliya Prezidenti qeyd etmişdir ki, o, Azərbaycanda olmasa da, burada aparılan uğurlu islahatlardan xəbərdardır və xüsusilə qanunvericilik, idarəetmə və iqtisadiyyatın modernləşdirilməsi sahəsində görülən işlər ölkənin Avropaya tam inteqrasiyasına şərait yaradacaqdır. Cənab Adzelyo Çampi Dağlıq Qarabağ münaqişəsinə toxunaraq vurğulamışdır ki, vaxtilə İtaliya da belə problemlə qarşılaşmışdı və biz onun həlli təcrübəsindən istifadə edərək, Azərbaycana kömək göstərməyə hazırıq. ATƏT-in Minsk qrupunun vasitəçilik səylərinin hələ bir nəticə vermədiyini xatırladan Prezident Adzelyo Çampi bildirdi ki, İtaliya Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi üçün köməyini əsirgəməyəcəkdir.

İtaliya Respublikasına səfəri çərçivəsində Prezident İlham Əliyev Romada İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoni ilə görüşmüşdür. Silvio Berluskoni Azərbaycanın dinamik inkişaf etməsi barədə məlumatı olduğunu bildirmiş, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi və daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğulamışdır. Prezident İlham Əliyev görüş zamanı müstəqillik illərində Azərbaycanın keçdiyi yoldan, qarşılaşdığı çətinliklərdən, eyni zamanda, ölkəmizin Avropaya inteqrasiyası istiqamətində görülən işlərdən danışmışdır. Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsinin bütün region üçün əngəllər törətdiyini vurğulayaraq, bu problemin aradan qaldırılmasında Avropa Birliyinin də fəallığının artırılmasının zəruriliyini söyləmişdir.











**Azərbaycan Prezidenti İlham Əliyev Romada BMT-nin Dünya Ərzaq Proqramı Təşkilatının Baş direktoru Jak Diouf ilə də görüşmüşdür.**

Söhbət zamanı Prezident İlham Əliyev Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemlərindən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində son illər görülən işlərdən danışmışdır.

**8–10 mart 2005-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığında rəsmi səfərdə olmuşdur.**

Ər-Riyadda Əl-Yamama sarayında Səudiyyə Ərəbistanının Kralı Fəhd bin Əbdüləziz Al Səud ilə keçirilən görüş zamanı ikitərəfli münasibətlər haqqında fikir mübadiləsi aparılmış və əməkdaşlığın daha da dərinləşdirilməsi barədə razılığa gəlmişlər. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın ali mükafatı – "İstiqlal" ordeni İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səuda təqdim etmişdir. Kral Fəhd bin Əbdüləziz Al Səud Azərbaycan Prezidenti İlham Əliyevi Səudiyyə Ərəbistanı Krallığının dünyanın ən nüfuzlu, ən görkəmli siyasi xadimlərinə təqdim olunan ali dövlət mükafatı – "Kral Əbdüləziz" ordeni ilə təltif etmişdir.

Səudiyyə Ərəbistanına səfəri çərçivəsində Azərbaycan Prezidenti Məkkə şəhərində Kəbəni ziyarət etmiş, Əl-Həram məscidini seyr etmişdir.

2005











**Səudiyyə Ərəbistanına səfəri çərçivəsində Azərbaycan Prezidenti Ciddə şəhərində İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlu ilə görüşmüşdür.**

Prezident İlham Əliyev görüş zamanı İslam Konfransı Təşkilatı ilə ölkəmizin əməkdaşlığını yüksək qiymətləndirərək demişdir ki, bu təşkilat Azərbaycana münasibətdə, xüsusilə ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində həmişə düzgün mövqe tutmuş, bir neçə mühüm qərar və qətnamə qəbul etmiş və Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləmişdir. İslam Konfransı Təşkilatının Azərbaycan üçün çox vacib bir təşkilat olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlardan və münaqişənin həlli perspektivlərindən bəhs edərək demişdir ki, bu münaqişə beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və əminik ki, İslam Konfransı Təşkilatı bu məsələdə Azərbaycanı bundan sonra da dəstəkləyəcəkdir.

**17–19 mart 2005-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasında dövlət səfərində olmuşdur.**

Səfər çərçivəsində Pekində ÇXR-in Sədri Xu Szintao ilə görüşmüşdür. Görüş zamanı iki ölkə arasında həyata keçirilən əməkdaşlığın genişləndirilməsi barədə razılıq əldə edilmiş və Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında Birgə Bəyannamə imzalanmışdır.

Bu səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev Pekində Çin Xalq Respublikası Dövlət Şurasının başçısı Ven Szyabao ilə görüşmüşdür. Cənab Ven Szyabao Azərbaycan Prezidentinin Çinə dövlət səfərinin ölkədə çox böyük maraq doğurduğunu bildirmiş, getdikcə genişlənən əməkdaşlığın qarşılıqlı surətdə faydalılıq prinsiplərinə əsaslanmasını yüksək qiymətləndirmişdir. O, vahid Çin barəsində siyasətdə ÇXR-in mövqeyini dəstəklədiyinə görə Azərbaycan rəhbərinə təşəkkür etmişdir. Eyni zamanda demişdir ki, Çin Azərbaycanın öz ərazi bütövlüyünün təmin edilməsi sahəsində ədalətli səylərini bundan sonra da birmənalı şəkildə dəstəkləyəcəkdir. Prezident İlham Əliyev bildirmişdir ki, vahid Çin məsələsində Azərbaycanın mövqeyi dəyişməz qalacaqdır. Beynəlxalq aləmdə bütün problemlərin həllində ölkələrin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipləri üstün yer tutmalıdır.

2005









**30–31 mart 2005-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Polşa Respublikasında rəsmi səfərdə olmuşdur.**

**12–13 aprel 2005-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasında rəsmi səfərdə olmuşdur.**

**21–22 aprel 2005-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Moldova Respublikasında rəsmi səfərdə olmuşdur.**

# 2005

Prezidentlərin görüşündə ikitərəfli siyasi, iqtisadi və digər sahələrdə olan əlaqələrin gələcəkdə daha da genişləndirilməsi, aktual beynəlxalq və regional məsələlər barədə müzakirələr aparılmışdır. Görüşdə həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinə də toxunulmuşdur.

Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf Azərbaycan Prezidentinin Pakistana səfərini çox səbirsizliklə gözlədiklərini, bu səfərin iki qardaş ölkə arasındakı əməkdaşlığın inkişafına güclü təkan verəcəyini qeyd etmişdir. Azərbaycan Prezidenti ölkələrimiz arasındakı münasibətlərin günbəgün inkişaf etdiyini xatırlatmış və xüsusi vurğulamışdır ki, rabitə və informasiya texnologiyaları, mədəniyyət, maliyyə sektoru, təhsil, nəqliyyat, aviasiya sahələrində əməkdaşlıq zəruridir. Prezidentlər Kəşmir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələləri ətrafında geniş fikir mübadiləsi aparmışlar. Tərəflər problemlərin ədalətli, beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdar olduqlarını, bu sahədə ölkələrimizin bir-birini bütün beynəlxalq təşkilatlarda daim dəstəklədiyini və gələcəkdə də dəstəkləyəcəyini vurğulamışlar.

Prezidentlər Azərbaycan və Moldova arasında ikitərəfli münasibətlərin inkişafı üçün müxtəlif sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığın gücləndirilməsi məqsədi ilə parlament, hökumət, nazirliklər səviyyəsində dialoqun inkişaf etdirilməsinin zəruri olduğunu bildirmişlər. Dövlət başçıları beynəlxalq səviyyədə tanınmış sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyini bir daha təsdiqləyərək, təcavüz aktlarına və suveren dövlətlərin ərazi bütövlüyünə qarşı yönəlmiş təhdidlərə qarşı beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsinin vacibliyini vurğulamışlar.

Səfər zamanı Azərbaycan Prezidenti Kişinyovda Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimində iştirak etmişdir. Prezident İlham Əliyev çıxışında bildirmişdir: "Nizami bu gün də müasirimiz olaraq qalır. O, özünün ölməz humanist ideyaları ilə bəşəriyyətin işıqlı gələcəyinin qurulmasında iştirak edir. Xeyrin, ülvi olan hər bir şeyin gözəlliyinin mənəvi qüvvəsinə inamı ilə bu gün də bizimlədir. Fürsətdən istifadə edərək, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin sözlərini misal gətirmək istəyirəm. O, demişdir: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Məhz mədəni əlaqələr, mənəvi yaxınlıq xalqları getdikcə daha çox yaxınlaşdırır və dostluq münasibətlərini möhkəmləndirir. Hesab edirik ki, bu baxımdan Azərbaycan və Moldova təkcə siyasi, iqtisadi və digər sahələrdə deyil, mədəniyyət və incəsənət sahəsində də ikitərəfli əməkdaşlığı genişləndirməlidir."

Səfər çərçivəsində 22 aprel 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kişinyovda "Respublika" sarayında GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Zirvə görüşündə iştirak etmişdir. Prezident İlham Əliyev Zirvə görüşündə çıxışı zamanı bildirmişdir: "Təəssüf ki, bizi heç də təkcə xoş anlar bəxş edən, bizi ruhlandıran və müstəqilliyimizi möhkəmləndirən amillər birləşdirmir, bizi ağrı-acımız da birləşdirir. Söhbət ölkələrimizin ərazilərindəki münaqişələrdən gedir. İş elə gətirmişdir ki, postsovet məkanındakı bütün münaqişələr GUÖAM ölkələrinin ərazilərində baş verir. Onların hamısının mənşəyi eynidir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Abxaziyadakı münaqişə, Cənubi Osetiyadakı münaqişə və Dnestryanı bölgədəki münaqişə – bütün bunlar təcavüzkar separatizmdən, ölkələrimizin ərazi bütövlüyünün pozulmasından, təcavüzkar separatçı niyyətlərin qurbanları olan milyonlarla qaçqın-köçkünü əziyyətlərə və müsibətlərə düçar etmiş siyasi etnik təmizləmələrdən yaranmışdır. Bizi bu da birləşdirir".
















**15–17 may 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü zirvə görüşündə iştirak etmək üçün Varşavada işgüzar səfərdə olmuşdur.**

Azərbaycan Prezidenti İlham Əliyev zirvə görüşündə çıxışı zamanı bildirmişdir: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi böyük sayda insan tələfatına səbəb olmuşdur və bu münaqişə nəticəsində bu gün Azərbaycan ərazisinin 20 faizi işğal altındadır. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Həmçinin Avropa Şurasının ən başlıca prinsiplərindən biri – insan hüquqlarının qorunması prinsipi pozulmuşdur. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqları kobudcasına pozulmuşdur".

**24 may 2005-ci il tarixində Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi səfərə gəlmişdir.**

Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə keçirilən görüşdə bildirmişdir: "Biz tərəfdaş ölkələrik, qardaşıq. Biz regionda bu gün mühüm rol oynayan və gələcəkdə getdikcə daha mühüm rol oynayacaq ölkələrik. Regionumuzda baş verən proseslər də xeyli dərəcədə qarşılıqlı fəaliyyətimizin və əməkdaşlığımızın səviyyəsindən asılı olacaqdır". Qazaxıstan Prezidenti Nursultan Nazarbayev: "Hesab edirəm ki, Mərkəzi Asiyada Qazaxıstan Azərbaycan üçün, bizim üçünsə Qafqazda Azərbaycan əsas dövlətdir. Məsələ təkcə bunda deyildir, hərçənd bu da çox vacibdir, biz ümumi tarixi, ümumi böyük əcdadları, ümumi dili, mədəniyyət və ənənələri olan qohum xalqlarıq". Prezidentlərin görüşündə iki ölkə arasındakı əməkdaşlıq məsələləri ilə yanaşı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli sahəsində Azərbaycanın mövqeyinin Qazaxıstan tərəfindən bundan sonra da dəstəklənəcəyi vurğulanmışdır.

2005







**10–12 iyun 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikasında rəsmi səfərdə olmuşdur.**

Prezidentlərin görüşündə ölkələrimizdə ictimai-siyasi, sosial-iqtisadi inkişaf, regional və ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılmışdır. Prezidentlər yeni qlobal çağırışlara və təhlükələrə qarşı birgə fəaliyyətdə və səylərin birləşdirilməsində, habelə müxtəlif regional təşəbbüslər çərçivəsində əməkdaşlıqda, iqtisadi-ticarət münasibətlərinin keyfiyyətcə yeni səviyyəsinə nail olunması və bu sahədə beynəlxalq standartlara uyğun faydalı əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını bildirmişlər. Görüşdə sərmayələrin qarşılıqlı təşviqinin, kooperasiyanın müxtəlif formalarının və işgüzar sahədə birbaşa təmasların genişləndirilməsinin vacibliyi də vurğulanmışdır.



**13–14 iyun 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sankt-Peterburqda işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Azərbaycan Prezidenti Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşmüşdür. Ölkələrimiz arasında istər iqtisadi, istərsə də siyasi sahədə əməkdaşlığın uğurlu olduğunu vurğulayan Rusiya Prezidenti demişdir ki, son illər bu əməkdaşlıq yüksələn xətlə inkişaf edir və zənnimcə, biz bu meyli gələcəkdə də saxlayacağıq. Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin durmadan artdığını xatırladan Prezident Vladimir Putin bunun hər iki ölkənin xalqlarına fayda gətirəcəyinə əmin olduğunu söyləmişdir. Prezident Putin Rusiya-Azərbaycan münasibətlərinin inkişafına göstərdiyi böyük diqqətə, habelə 9-cu Peterburq iqtisadi forumunda iştirakına görə Prezident İlham Əliyevə təşəkkür etmişdir. Peterburq iqtisadi forumunu çox faydalı tədbir kimi səciyyələndirən Azərbaycan Prezidenti İlham Əliyev forum çərçivəsində respublikamızın, iqtisadi münasibətlərimizin təqdimatını xüsusi vurğulamışdır. Ölkələrimiz arasında münasibətlərin çox sıx olduğunu xatırladan Azərbaycan dövlətinin başçısı bunu qarşılıqlı etimad və qarşılıqlı hörmət əsasında qurulan mehriban qonşuluq münasibətlərinə yaxşı nümunə kimi qiymətləndirmişdir.



Səfər çərçivəsində 14 iyun 2005-ci ildə Prezidenti İlham Əliyev Sankt-Peterburqda Qoroxovaya küçəsindəki 6 nömrəli ünvanda, ümummilli lider Heydər Əliyevin 1949–1950-ci illərdə təhsil aldığı keçmiş DTK-nın Ali məktəbinin binasında ulu öndərimizin xatirə lövhəsinin açılışı mərasimində iştirak etmişdir.





2005

**16 iyun 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynada işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Kiyevdə Ukrayna Prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür. Dövlət başçıları iqtisadi sahədə, xüsusilə enerji sahəsində əməkdaşlıq, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, regionda təhlükəsizlik və Avratlantik məkanına inteqrasiya məsələləri ətrafında geniş fikir mübadiləsi aparmışlar.



**30 iyun 2005-ci il tarixində Türkiyənin Baş nazir Rəcəb Tayyib Ərdoğan Azərbaycana ilk dəfə rəsmi səfərə gəlmişdir.**

Azərbaycanın Prezidenti və Türkiyənin Baş naziri arasında keçirilən görüşdə iki dost və qardaş ölkə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi qərara alınmışdır. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Türkiyənin tutduğu mövqeyə və Azərbaycana verdiyi dəstəyə görə təşəkkürünü bildirmişdir. Baş nazir Rəcəb Tayyib Ərdoğan Azərbaycanın ədalətli mövqeyini bundan sonra da dəstəkləyəcəklərini xüsusi vurğulamışdır. Səfər çərçivəsində Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi təşkil olunmuşdur.



**26–27 avqust 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmişdir.**

26–27 avqust 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının növbəti – sayca 40-cı zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyası Tatarıstan Respublikasında səfərdə olmuşdur.



**23–24 sentyabr 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasında rəsmi səfərdə olmuşdur.**

Səfər çərçivəsində Prezident İlham Əliyevin Sofiyada Bolqarıstan Prezidenti Georgi Pırvanov ilə təkbətək görüşü olmuşdur.



# 2005

**3 oktyabr 2005-ci il tarixində Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa Azərbaycana rəsmi səfərə gəlmişdir.**

**6–8 dekabr 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Məkkə şəhərində keçirilmiş İslam Konfransı Təşkilatının üçüncü fövqəladə Zirvə toplantısında iştirak etmək məqsədilə Səudiyyə Ərəbistanı Krallığında işgüzar səfərdə olmuşdur.**

# 2005

Dövlət başçılarının görüşündə siyasi əlaqələrin inkişafı, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın, iqtisadi, siyasi və digər sahələrdə əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulanmışdır. Latviyanın Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ probleminin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğu bildirilmişdir. Prezidentlər beynəlxalq təhlükəsizlik, bölgədə mövcud olan münaqişələrin aradan qaldırılması məsələləri, ölkələrimiz arasında əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparmışlar. Səfər çərçivəsində Azərbaycan-Latviya sənədlərinin imzalanması mərasimi olunmuşdur.

Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev bildirmişdir: "Artıq 15 ildir ki, Azərbaycan qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, nəticədə torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox insan qaçqın və məcburi köçkün olmuşdur. Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Dağlıq Qarabağda və digər yeddi rayonda qədim mədəniyyət abidələri məhv edilmiş, məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, müsəlman sivilizasiyasının izləri yer üzündən silinmişdir. Hərbi təcavüz və etnik təmizləmə nəticəsində 20 mindən çox azərbaycanlı öldürülmüş, 50 mindən çox adam əlil olmuş, 4 mindən çox adam əsir və itkin düşmüş, girov götürülmüşdür. Uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımının bütün dəhşətlərini görmüşlər".











# 2004

**22–23 yanvar 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Fransada ilk dəfə rəsmi səfərdə olmuşdur.**

Parisdə Yelisey sarayında Fransa Prezidenti Jak Şirakla görüş zamanı Fransa-Azərbaycan ikitərəfli əlaqələrinin inkişaf perspektivləri müzakirə olunmuşdur. Dövlət başçıları ölkələrimiz arasında əməkdaşlığın gələcəkdə də inkişaf etdirilməsi üçün müxtəlif səviyyələrdə görüşlərin keçirilməsinin vacibliyini vurğulamışlar. Yelisey sarayında Fransa Respublikasının Prezidenti Jak Şirakın ümummilli liderimiz Heydər Əliyevi vaxtilə təltif etdiyi "Fəxri legionun böyük xaç komandoru" ordeninin Prezident İlham Əliyevə təqdim olunması mərasimi keçirilmişdir. Fransa Prezidenti Jak Şirak ordeni Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edərkən görkəmli dövlət xadimi, tanınmış siyasətçi Prezident Heydər Əliyevin Fransa-Azərbaycan əlaqələrinin inkişafındakı xidmətlərini xüsusi vurğulamışdır.

2004





**5–7 fevral 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasında ilk dəfə rəsmi səfərdə olmuşdur.**

2004

Prezidentlərin görüşü zamanı Rusiya Prezidenti Vladimir Putin demişdir: "Əməkdaşlığın bütün bu istiqamətləri Rusiya və Azərbaycan xalqlarının xeyrinədir. Şübhə etmirəm ki, Sizin rəsmi səfəriniz ikitərəfli münasibətlərin daha da inkişafına kömək göstərəcəkdir". Azərbaycan Prezidenti Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyindən danışaraq vurğulamışdır: "Bizim yaxşı siyasi əlaqələrimiz, ikitərəfli məsələlərdə, regional əməkdaşlıq məsələlərində tam qarşılıqlı anlaşmamız var, bir çox beynəlxalq problemlərdə mövqelərimiz uyğun gəlir. Azərbaycan Rusiyanın strateji tərəfdaşıdır və biz bu strateji tərəfdaşlığa sadiqik. Mən bu xətti davam etdirəcəyəm". Görüşdə ikitərəfli iqtisadi münasibətlərlə yanaşı regional və beynəlxalq məsələlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müzakirələr də aparılmışdır.



Rusiyaya səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vaxtilə təhsil aldığı və müəllim kimi fəaliyyət göstərdiyi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun müəllim və professor heyəti ilə görüşmüşdür. Rektor Anatoli Torkunov görüşü açaraq, Azərbaycan Prezidentinin bu mötəbər təhsil ocağında təhsil aldığını və institutun müdavimləri arasında onun ilk dövlət başçısı olduğunu söyləmişdir. O, Prezident İlham Əliyevin siyasi fəaliyyəti haqqında da ətraflı məlumat vermişdir, Rusiya–Azərbaycan əlaqələrinin perspektivlərindən, ölkəmizdə aparılan siyasi, iqtisadi və hüquqi islahatlardan ətraflı bəhs edən dövlətimizin başçısı bu xəttin gələcəkdə də davam etdiriləcəyini vurğulamışdır.



**1–2 mart 2004-cü il tarixində Prezident İlham Əliyev Qazaxıstan Respublikasında rəsmi səfərdə olmuşdur.**

# 2004

Prezident Nursultan Nazarbayev Azərbaycanla bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verdiyini söyləmiş və bu baxımdan Prezident İlham Əliyevin Qazaxıstana ilk dö-vlət səfərinin qarşılıqlı surətdə faydalı ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəyini vurğulamışdır. Prezidentlər ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluqlarını ifadə etmiş və gələcəkdə əməkdaşlığın daha yüksək səviyyəyə qalxması üçün səylərin artırılmasının vacibliyini bildirmişlər. Prezident İlham Əliyev və Prezident Nursultan Nazarbayev iqtisadi münasibətlərə, xüsusilə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına nəql edilməsi sahəsində əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparmışlar. Hər iki dövlət başçısı neft və qaz sektorunda həyata keçirilən irimiqyaslı layihələrin, xüsusilə Bakı–Tbilisi–Ceyhan layihəsində Qazaxıstanın iştirakının böyük əhəmiyyətə malik olduğunu söyləmişlər. Qeyd olunmuşdur ki, gələcəkdə Qazaxıstan təbii qazının da Azərbaycan ərazisindən Avropaya çatdırılması nəzərdə tutulur. Görüşdə beynəlxalq və regional əməkdaşlıq məsələləri də geniş müzakirə olunmuşdur. Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin gələcək inkişafı üçün regional münaqişələrin, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə və beynəlxalq hüquq normaları əsasında həll olunmasının zəruriliyi vurğulanmışdır.





**4 mart 2004-cü il tarixində Gürcüstan Prezidenti Mixeil Saakaşvili Azərbaycana rəsmi səfərə gəlmişdir.**

# 2004

Prezident İlham Əliyev bildirmişdir ki, o, Azərbaycan–Gürcüstan münasibətlərinin inkişafı sahəsində ümummilli liderimiz Heydər Əliyevin siyasətini davam etdirəcəkdir. Gürcüstan Prezidenti Mixeil Saakaşvili isə öz növbəsində bildirmişdir ki, ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və ölkələrimiz arasında daha geniş əməkdaşlığa nail olmaq üçün əlindən gələni əsirgəməyəcəkdir. Görüş zamanı tərəflər siyasi-iqtisadi və mədəni sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparmışlar.



**13–15 aprel 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasında rəsmi səfərdə olmuşdur.**

# 2004

Səfər çərçivəsində Ankarada, Çankaya köşkündə Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər ilə görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişaf perspektivləri ətraflı müzakirə edilmiş, regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi aparılmışdır. Türkiyə Prezidenti Azərbaycanda gedən demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu və bazar iqtisadiyyatı münasibətlərinin formalaşması proseslərinə verdiyi dəstəyi bir daha təsdiqləmişdir. Prezidentlərin görüşü zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüquq prinsipləri əsasında həlli məsələsinə geniş yer verilmişdir, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsinin, qaçqın və məcburi köçkünlərin öz yerlərinə qayıtmasına imkan yaradılmasının zəruriliyi vurğulanmışdır.







**28–29 aprel 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Strasburqda işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Prezident İlham Əliyev Strasburqda Avropa Şurasının Baş katibi Valter Şvimmer ilə görüşmüşdür. Valter Şvimmer İlham Əliyevin Azərbaycan Prezidenti kimi Avropa Şurasına ilk gəlişinin əhəmiyyətini vurğulamış, Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğunu ifadə etmişdir.



Bu səfər çərçivəsində Azərbaycan Prezidenti Strasburqda AŞPA-nın yaz sessiyasının iclasında çıxış etmişdir. Prezident İlham Əliyev Azərbaycanın Avropa Şurasının üzvü olduğu üç il ərzində ölkəmizdə aparılan hüquqi islahatlar, respublikamızdakı ictimai-siyasi, iqtisadi vəziyyət barədə geniş məlumat vermiş və Azərbaycanın bazar münasibətlərinə əsaslanan iqtisadiyyata malik azad, demokratik, plüralist cəmiyyət qurmaq yolu ilə irəlilədiyini bildirmişdir.




2004

**17–19 may 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Belçika Krallığında işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Prezident İlham Əliyev Brüsseldə Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşmüşdür.



Brüsselə səfəri çərçivəsində Azərbaycan Prezidenti Dünya Gömrük Təşkilatı (DGT) iqamətgahı qarşısında, "Dədə Qorqud" abidəsinin açılış mərasimində çıxış etmişdir.





Həmin gün DGT-nin iqamətgahında Dünya Gömrük Təşkilatı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında "Niyyət Protokolu"nun imzalanma mərasimi olmuşdur.



# 2004

Belçikaya səfəri çərçivəsində Azərbaycan Prezidenti Brüsseldə NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer ilə görüşmüşdür. Görüş zamanı Azərbaycan-NATO əməkdaşlığına dair geniş fikir mübadiləsi aparılmış, on il əvvəl, 1994-cü il mayın 4-də Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzaladığı xatırlanmışdır. Prezident İlham Əliyev ölkəmiz tərəfindən hazırlanmış və Azərbaycan ilə NATO arasında əməkdaşlığın daha da sıxlaşmasına xidmət edəcək "Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı"nın təqdimat sənədini NATO-nun Baş katibinə vermişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi, bir sıra regional və beynəlxalq məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

2004





**3–4 iyun 2004-cü il tarixində Azərbaycan Prezidenti Ukraynada dövlət səfərində olmuşdur.**

Prezidentlərin görüşü zamanı iki ölkə arasında iqtisadi-ticari əməkdaşlıq, o cümlədən neft sahəsində və enerji daşıyıcılarının Avropaya nəqli sahəsində işbirliyi məsələləri ətraflı müzakirə edilmiş, GUÖAM çərçivəsində əməkdaşlıq məsələləri, Avropa Birliyi və NATO ilə qarşılıqlı əlaqələr, hər iki ölkədə siyasi, sosial-iqtisadi vəziyyət barədə fikir mübadiləsi aparılmışdır. Dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunmuşlar. Prezident Leonid Kuçma bildirmişdir ki, Ukrayna problemin sülh yolu ilə həllinə tərəfdardır, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.



**14–15 iyun 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanda dövlət səfərində olmuşdur.**

Prezidentlərin görüşü zamanı bütün sahələrdə ikitərəfli əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri, regionda və dünyada təhlükəsizlik problemləri barədə ətraflı fikir mübadiləsi aparılmışdır.



2004

**26–29 iyun 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Türkiyədə işgüzar səfərdə olmuşdur.**

# 2004

Azərbaycan Prezidenti İstanbulda Heydər Əliyev adına parkın və ümummilli liderimizin büstünün açılış mərasimində iştirak etmişdir.

NATO-nun zirvə görüşündə iştirak etmək üçün Türkiyəyə səfəri çərçivəsində Azərbaycan Prezidenti İstanbulda Türkiyə Prezidenti Əhməd Necdət Sezərlə görüşmüşdür. Prezident Əhməd Necdət Sezər Azərbaycan–Türkiyə münasibətlərinin günbəgün genişləndiyini, iqtisadi-siyasi sahədə əlaqələrin hər iki ölkənin maraqlarına uyğun şəkildə inkişaf etdiyini bildirmişdir. Azərbaycan Prezidenti ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından söhbət açmış, o cümlədən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisində işlərin nəzərdə tutulduğu şəkildə getdiyini vurğulayaraq demişdir ki, bu layihənin vaxtında başa çatdırılması hər iki tərəfə böyük fayda gətirəcəkdir. Prezidentlər hər iki ölkəni maraqlandıran regional və beynəlxalq məsələlərə, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi aparmışlar. Prezident Əhməd Necdət Sezər Türkiyənin bu münaqişədə Azərbaycanın mövqeyini daim dəstəkləyəcəyini bildirmişdir.

Prezident İlham Əliyev 29 iyun 2004-cü il tarixində NATO-nun İstanbul sammitində çıxış edərkən bildirmişdir: "Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq yalnız bəyanatlarla deyil, praktiki addımlarla sübuta yetirmişdir. Biz siyasi iradəmizi ifadə edərək, həm də ümumi məqsədimiz olan NATO-nun sülhü dəstəkləyən əməliyyatlarına qoşulmağa hazır olduğumuzu bildirdik. Bu gün bizim sülhməramlılar NATO və tərəfdaş dövlətlərin hərbçiləri ilə birlikdə dünyanın müxtəlif bölgələrində sülh və təhlükəsizliyə töhfələrini əsirgəmirlər. Birləşmiş Ştatlara 11 sentyabr hücumlarından sonra Azərbaycan antiterror koalisiyasına qoşulan ölkələrin ilk cərgəsində durdu. Bu gün bizim ölkəmiz terrora qarşı qlobal savaşa öz əməli töhfəsini verməkdədir. Erməni terroruna məruz qalmış bir ölkə kimi (32 terror aktı nəticəsində 2 mindən çox adam həlak olmuşdur), biz yaxşı anlayırıq ki, yalnız beynəlxalq ictimaiyyətin ümumi səyləri ilə bu bəlaya qarşı səmərəli mübarizə aparmaq mümkündür".








24–26 avqust 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasında ilk dəfə rəsmi səfərdə olmuşdur.

2004

Prezidentlərin görüşü zamanı Azərbaycanın və Almaniyanın beynəlxalq təşkilatlarda əməkdaşlığı, ölkəmizin Avropa strukturlarına inteqrasiyası, AFR şirkətlərinin respublikamıza sərmayə qoyması, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq ətrafında fikir mübadiləsi aparılmışdır. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi toxunulmuşdur. Cənab Horst Köler bildirmişdir ki, Almaniya Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləmişdir və bu mövqeyi dəyişməzdir. ATƏT-in üzvü kimi Almaniya da bu problemin həllində səylərini artıracaqdır.



**7–9 sentyabr 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Fransada işgüzar səfərdə olmuşdur.**

# 2004

Səfər çərçivəsində Azərbaycan Prezidenti Parisdə – YUNESKO-nun iqamətgahında Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevaya BMT-nin bu ixtisaslaşmış təşkilatının Xoşməramlı səfiri adı verilməsinə həsr olunmuş mərasimdə iştirak etmişdir.





**22–24 sentyabr 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Nyu-Yorkda işgüzar səfərdə olmuşdur.**

2004

Səfər çərçivəsində Nyu-Yorkun Kolumbiya Universitetində keçirilmiş görüşdə çıxış edən Prezident İlham Əliyev bildirmişdir: "Biz bu gün neft strategiyamızın əsas hissəsinin astanasında olarkən regionda təhlükəsizlik böyük əhəmiyyət kəsb edir. Hazırda uğurla inşa olunan neft və qaz kəmərləri təkcə təbii ehtiyatların beynəlxalq ticarət bazarlarına daşınması demək deyildir. Əminəm ki, bu, həm də regional təhlükəsizlik və sabitliyə töhfəsini verəcək, praktiki olaraq, regionun gələcək inkşafını bir növ əvvəlcədən müəyyən edəcəkdir. Regional əməkdaşlıq da bizim siyasətimizin əsas elementlərindən biridir. Biz Azərbaycan olaraq məmnuniyyətlə bir sıra regional layihələrin önündə gedirik. Regiondakı nəqliyyat, kommunikasiya, enerji layihələri bizim fəal iştirakımızla həyata keçirilir".









**Prezident İlham Əliyev Nyu-Yorkda BMT-nin Baş katibi Kofi Annan ilə görüşmüşdür.**

# 2004

Görüş zamanı Prezident İlham Əliyev Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində görülən işlərdən danışmış, eyni zamanda, xüsusi vurğulamışdır ki, uzun illərdən bəri davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəinki ölkəmizin, ümumən Cənubi Qafqazın inkişafına əngəl törədir, regionda sülh və sabitlik üçün başlıca təhlükə olaraq qalır. Azərbaycanın problemi sülh yolu ilə həll etmək istədiyini bildirən Prezident İlham Əliyev bu işdə BMT-nin rolunun artırılmasının vacibliyini nəzərə çarpdıraraq demişdir ki, təcavüzkar Ermənistan bu münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə məhəl qoymur: "Hesab edirik ki, BMT kimi nüfuzlu beynəlxalq təşkilat qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsinə biganə qalmamalıdır. Azərbaycan isə torpaqlarının işğalı ilə heç vaxt barışmayacaqdır". Ermənistanın hərbi təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş bir milyondan çox insanın problemlərini həll etməyin Azərbaycan üçün ağır yük olduğunu xatırladan dövlətimizin başçısı BMT-nin əlaqədar təsisatlarının, donor ölkələrin bu məsələyə diqqətinin artırılmasının zəruriliyini vurğulamışdır. Cənab Kofi Annan dövlətlərin BMT tərəfindən tanınmış sərhədlərinin dəyişməz olduğunu bildirmiş, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll ediləcəyinə ümid bəslədiyini söyləmişdir.



**Azərbaycan Prezidenti səfər çərçivəsində Nyu-Yorkda BMT Baş Məclisi 59-cu sessiyasının ümumi müzakirələrində çıxış etmişdir.**

# 2004

Çıxışında Prezident İlham Əliyev bildirmişdir: "İşğal olunmuş Azərbaycan torpaqları Azərbaycan hökumətinin nəzarətindən kənarda qalan "boz əraziyə" və beynəlxalq monitorinqdən azad bir əraziyə çevrilmişdir. Özü-özünü elan etmiş və heç kim tərəfindən tanınmayan qondarma "dağlıq qarabağ respublikası" bölgədə sülh və təhlükəsizlik üçün daimi təhlükə mənbəyidir".



**11–12 oktyabr 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyada dövlət səfərində olmuşdur.**

Dövlət başçıları görüş zamanı Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqələrin perspektivləri, regional əməkdaşlıq, eləcə də beynəlxalq məsələlər ətrafında geniş müzakirələr aparmış, regionda sabitlik və təhlükəsizlik məsələləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi etmişlər.



Bu səfər çərçivəsində Buxarestin mərkəzində yerləşən "8 May" parkında Heydər Əliyevin büstünün açılışı mərasimi keçirilmişdir. Prezident İlham Əliyev Şərqi Avropa ölkələri arasında Azərbaycanın səfirliyinin ilk dəfə məhz Buxarestdə açıldığını xatırlatmış və bunu əsası Heydər Əliyev və Prezident İon İliyesku tərəfindən qoyulmuş Rumıniya–Azərbaycan dostluq münasibətlərinin təcəssümü kimi qiymətləndirmişdir.




2004

**18–19 oktyabr 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Kremldə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüş zamanı Prezident İlham Əliyev demişdir ki, bu, onun prezident seçildikdən sonra Moskvaya üçüncü səfəridir və bu səfərlər ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayır. Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiyanın öz səylərini artıracağına ümidvar olduğunu bildirmişdir.



**27–28 oktyabr 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Ukraynada işgüzar səfərdə olmuşdur.**

Səfər çərçivəsində Kiyevdə Azərbaycan Prezidenti İlham Əliyev Ukraynanın faşist işğalçılarından azad olunmasının 60 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir. Ukrayna Prezidenti Ukraynanın azadlığı uğrunda döyüşlərdə 4 minə yaxın insanın Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü və bunlardan 17-nin azərbaycanlı olduğunu vurğulamışdır.






2004

**30 noyabr – 1 dekabr 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Qətər Dövlətində rəsmi səfərdə olmuşdur.**

Azərbaycan Prezidentinin Dohada "Əmiri-divan" sarayında Qətər əmiri Həməd bin Xəlifə Al Tani ilə görüşü zamanı iki ölkə arasında həyata keçirilən siyasi və iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi və digər sahələrdə də münasibətlərin inkişaf etdirilməsi barədə razılıq əldə olunmuşdur. Azərbaycan Prezidenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxunmuş və problemin həlli ilə bağlı ölkəmizin mövqeyini açıqlamış, beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də və İslam Konfransı Təşkilatında bu məsələnin müzakirəsi zamanı həmişə ölkəmizin mövqeyini dəstəklədiyinə görə Qətər Dövlətinə minnətdarlığını bildirmişdir.



**13–14 dekabr 2004-cü il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniyada rəsmi səfərdə olmuşdur.**

Prezident İlham Əliyev və Baş nazir Toni Bleyer arasında keçirilən görüşdə Azərbaycan–Böyük Britaniya əlaqələrinin perspektivləri, regional əməkdaşlıq, beynəlxalq məsələlər və ölkəmizin Avropa Birliyinə inteqrasiyası məsələləri ətraflı müzakirə olunmuşdur. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.



2004



# 2003

**3 dekabr 2003-cü il tarixində Prezident İlham Əliyev ABŞ-ın müdafiə naziri Donald Ramsfeldin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.**

Dövlətimizin başçısı qonaqlarla söhbəti zaman qeyd etmişdir: "2001-ci il sentyabrın 11-də Nyu-York şəhərində baş vermiş dəhşətli terror aktından sonra Azərbaycan dərhal və birmənalı şəkildə Amerikaya öz dəstəyini vermişdir. Bu dəstək davam edir, biz sizinlə bir koalisiyadayıq və bu koalisiyada qalacağıq. Əminəm ki, Amerika ilə Azərbaycan arasında hərbi sahədə mövcud olan əməkdaşlıq bundan sonra da inkişaf edəcəkdir".





**10 dekabr 2003-cü il tarixində Prezident İlham Əliyev Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinin açılış mərasimində iştirak etmişdir.**

Açılış mərasimindən əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annanın adından İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbulda iştirak etmişdir. Daha sonra Dövlət başçımız tədbirdə çıxış etmişdir. Həmin gün Azərbaycan Prezidentinin sammitin keçirildiyi salonda dövlət başçıları ilə bir sıra görüşləri olmuşdur.





**12 dekabr 2003-cü il tarixində Cenevrəyə işgüzar səfəri zamanı Prezident İlham Əliyev BMT-nin Cenevrədəki bölməsinin Baş direktoru Sergey Orconikidze ilə görüşmüşdür.**

Sergey Orconikidze vurğulamışdır ki, bu, Azərbaycan Respublikası Prezidentinin BMT-nin Cenevrə bölməsinə ilk gəlişidir və BMT ilə Azərbaycan arasında əlaqələrin daha da intensivləşməsinə xidmət edəcəkdir.





# 2003

ISBN 978-9952-404-59-3
ISBN 978-9952-404-60-9

**Azərbaycan 2013–2003. Əsrə bərabər illər.**
**Xarici siyasət: ikitərəfli və çoxtərəfli münasibətlər – beynəlxalq inteqrasiya və ölkənin nüfuzunun güclənməsi.**
Bakı – "Şərq-Qərb", 2013, 256 səh.

Formatı 64×90 1/8. Fiziki çap vərəqi 32.
Ofset çapı. Tirajı 5000.

"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.

AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

www.eastwest.az
www.fb.com/eastwest.az